Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

70-ci cild

21 may 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XV SESSİYASI İCLASININ

# PROTOKOLU № 168

*Milli Məclisin iclas salonu.*
*21 may 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 109 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Seyfulla Əzimov**, Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini.

**Fazil Quliyev**, Azərbaycan Respublikası daxili işlər nazirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2023-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı.

2. “Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi ara-

sında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 3 aprel tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyət üzvlərinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan–Rusiya dövlət sərhədindən "Samur" (Azərbaycan Respublikası) – "Yaraq–Qazmalar" (Rusiya Federasiyası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün və giriş yollarının istismarı və onlara xidmət göstərilməsi qaydaları haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

5. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1035-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

11. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

## Aşağıdakı məsələlər müzakirə edilmişdir:

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.11 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**1. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2023-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Seyfulla Əzimov, Zahid Oruc, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Aydın Mirzəzadə, Səbinə Xasayeva, Aqiyə Naxçıvanlı, Aydın Hüseynov, Etibar Əliyev, Siyavuş Novruzov, Razi Nurullayev, Musa Qasımlı

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 3 aprel tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev, Sahib Alıyev, Sabir Rüstəmxanlı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**3. "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyət üzvlərinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Sahib Alıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**4. "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan–Rusiya dövlət sərhədindən "Samur" (Azərbaycan Respublikası) – "Yaraq–Qazmalar" (Rusiya Federasiyası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün və giriş yollarının istismarı və onlara xidmət göstərilməsi qaydaları haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Səməd Seyidov, Siyavuş Novruzov, Zahid Oruc

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ba-**

**rədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Hicran Hüseynova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**7. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**10. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ba-**

**rədə Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1035-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Vüqar Bayramov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*21 may 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası  Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, mən sizə ötən dövrdə – aprel-may aylarında Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində görülmüş işlər haqqında qısa məlumat vermək istəyirəm.

İlk öncə qeyd edim ki, bu dövrdə Milli Məclis sədrinin iki ölkəyə rəsmi və iki ölkəyə də işgüzar səfərləri həyata keçirilmişdir.

Monteneqro Respublikasına aprelin 25-də başlanan üç

günlük rəsmi səfər gedişində ölkə Prezidenti Yakov Milatoviç, Parlamentin sədri Andrija Mandiç, Baş nazirin müavini Aleksa Becic ilə görüşlərim oldu. Qeyd edim ki, Milli Məclis sədrinin Monteneqro Respublikasına rəsmi səfəri ilk dəfə həyata keçirilirdi.

Aparılan danışıqlarda dost və strateji tərəfdaşlar olan ölkələrimizin bir çox məsələlərdə ortaq mövqe tutduqları qeyd edildi. İkitərəfli münasibətlərin gücləndirilməsində parlamentlərin qarşılıqlı fəaliyyətinin əhəmiyyəti vurğulandı.

Mən həmsöhbətlərimə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildikdən sonra Cənubi Qafqaz regionunda mövcud olan vəziyyət, həyata keçirilən tikinti və quruculuq işləri, Ermənistanla aparılan sülh danışıqları barədə məlumat verdim.

Bəzi dövlətlərin və beynəlxalq təşkilatların ölkəmizə qarşı qərəzli münasibətinin və qarayaxma kampaniyasının regionda gərginliyi artırmağa və münaqişəni yenidən alovlandırmağa xidmət etdiyini də bildirdim.

Hörmətli həmkarlar, mayın 12-də və 13-də Özbəkistan Respublikasının Səmərqənd şəhərinə işgüzar səfərdə məqsəd orada keçirilən Asiya Qadınlar Forumunda iştirak etmək idi. Forumda "Qadınların iqtisadi, sosial və siyasi hüquq və imkanlarının genişləndirilməsinə regional yanaşma" mövzusunda müzakirələr də aparıldı.

Qısa olaraq belə bir məlumatı sizə çatdırım ki, mən öz çıxışımda Azərbaycanda qadın hüquqlarının inkişafı sahəsində əldə edilən nailiyyətlərdən danışdım. Qadınların ictimai həyatın bütün sahələrində fəal iştirak etdiyini və yüksək vəzifələrdə təmsil olunduğunu da bildirdim. Qeyd etdim ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyəti

qadınlarımızın cəmiyyətin və ölkəmizin inkişafına dəyərli töhfələrini təcəssüm etdirir.

Hörmətli həmkarlar, Səmərqənddə Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə xanım Narbayeva ilə mənim görüşüm keçirildi. Görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından məmnunluq ifadə olundu. Söhbət zamanı mən Azərbaycan Prezidenti möhtərəm cənab İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" fikrini xatırlatdım, türk dövlətləri arasında əlaqələrin dərinləşməsində Azərbaycan və Özbəkistanın dövlət başçılarının rolunu xüsusi qeyd etdim.

Azərbaycan–Özbəkistan münasibətlərinin inkişafında parlamentlərin roluna da diqqət yetirildi. Parlamentlərimiz arasında əməkdaşlığın daha da dərinləşdirilməsi imkanları nəzərdən keçirildi.

Hörmətli həmkarlar, mayın 14-də və 15-də Milli Məclis sədrinin Sinqapur Respublikasına ilk rəsmi səfəri həyata keçirilmişdir. Səfər gedişində Sinqapur Respublikasının Prezidenti Tarman Şanmuqaratnam, Parlamentin sədri Seah Kian Penq, davamlılıq və ətraf mühit naziri Qreys Fu ilə görüşlərim oldu.

Görüşlərdə ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə olundu. Beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində uğurlu iş birliyi qeyd edildi.

Mən Azərbaycan Prezidenti möhtərəm cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti haqqında məlumat verdim, Şəbəkənin parlamentlərimizin əməkdaşlığı üçün mühüm bir platforma ola biləcəyini də vurğuladım.

Parlamentlərin qarşılıqlı fəaliyyətinin ikitərəfli münasibətlərdə mühüm rol oynadığını, parlamentlərarası təşkilat-

larda bir-birimizi dəstəkləmək üçün iş birliyini daha da genişləndirməyin vacibliyini nəzərə çatdırdım.

Bu ilin noyabrında Azərbaycanda keçiriləcək COP29 konfransı haqqında geniş fikir mübadiləsi aparıldı. Bakının evsahibliyi ilə təşkil olunacaq bu mühüm beynəlxalq tədbirə hazırlıqla bağlı görülən işlər barədə də məlumat verdim.

COP29 çərçivəsində keçiriləcək tədbirlərə Azərbaycan Milli Məclisinin də fəal surətdə qoşulduğunu bildirdim. Milli Məclisin Parlamentlərarası İttifaqla birlikdə təşkil edəcəyi Parlament toplantısı haqqında məlumat verdim. Sinqapur nümayəndələrinin də bu tədbirdə iştirakı məsələləri nəzərdən keçirildi.

Hörmətli həmkarlar, mayın 15-də və 17-də İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfərdə məqsəd Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin 1-ci iclasında iştirak etmək idi. İclasda etdiyim çıxışda Parlament Sədrlərinin 6-cı Dünya Konfransının təşkili ilə bağlı fikirlərimi bölüşdüm. Birləşmiş Millətlər Təşkilatında və onun Təhlükəsizlik Şurasında islahatların aparılmasının vacibliyini və həmin islahatlar barəsində Parlamentlərarası İttifaqın da yeni təkliflər hazırlamasının əhəmiyyətini  də bildirdim.

Hörmətli həmkarlar, Qadın Parlament Sədrlərinin Sammitinə hazırlıq məqsədi ilə qadın parlament sədrlərinin görüşü keçirildi. Öz çıxışımda  mən dünyada gender bərabərliyinin təmin olunması məsələlərində qarşıya çıxan problemlərdən danışdım. Bildirdim ki, növbəti Sammitdə qadınların ictimai fəallığının artırılması, onların təhsil hüququnun reallaşdırılması, yüksək vəzifələrdə təmsil olunması mövzuları geniş müzakirə edilməlidir.

Hörmətli həmkarlar, Cenevrə şəhərində Azərbaycan

Respublikasının Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında COP29 çərçivəsində Parlament toplantısının təşkili ilə əlaqədar Anlaşma Memorandumu imzalandı. Sənədi Milli Məclisin sədri və Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq imzaladılar.

Hörmətli həmkarlar, Cenevrəyə işgüzar səfər çərçivəsində BMT-nin bu şəhərdəki Ofisinin Baş direktoru Tatyana Valovaya ilə görüşüm oldu. Qeyd edim ki, görüş BMT-nin Ofisindəki "Azərbaycan otağı"nda keçirilirdi. Təşkilatla ölkəmiz arasında münasibətlərə dair müzakirələr aparıldı. Müasir qlobal çağırışların həllində parlament diplomatiyasının əhəmiyyəti nəzərə çatdırıldı.

"Azərbaycan otağının" Heydər Əliyev Fondu tərəfindən bərpa olunduğu vurğulandı. Fondun çoxşaxəli fəaliyyəti, o cümlədən BMT-nin layihələrində fəal iştirakı yüksək qiymətləndirildi. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barəsində də fikir mübadiləsi aparıldı.

Hörmətli həmkarlar, Cenevrədə Azərbaycan və Ermənistan parlamentləri sədrlərinin ikinci görüşü də keçirildi. Görüşdə Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının aparıldığı şəraitdə iki ölkənin parlamentlərinin sülh prosesinə necə dəstək verə biləcəyi ilə bağlı məsələlərin müzakirəsi davam etdirildi.

Hörmətli həmkarlar, hesab edirəm ki, Milli Məclisin nümayəndə heyətlərinin dörd ölkəyə rəsmi və işgüzar səfərləri uğurlu keçdi və bununla əlaqədar nümayəndə heyətlərinin hər bir üzvünə mən dərin minnətdarlığımı bildirirəm.

Hörmətli həmkarlar, ötən dövrdə Milli Məclisdə Bolqarıstan və Konqo prezidentləri, Malayziya, İraq, Latviya parlamentlərinin sədrləri, Türkiyə, İtaliya, Gürcüstan, Əlcəzair, Yeni Kaledoniya parlamentlərinin təmsilçiləri,

Çin Xalq Respublikasının Xarici Ölkələrlə Dostluq Assosiasiyasının sədri, Beynəlxalq Parlamentarilər Konqresinin Baş katibi, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası Parlamentlərarası Assambleyasının Baş katibi və rəhbərlik etdikləri nümayəndə heyətləri, Türk dövlətləri parlamentlərinin xarici əlaqələr komitələrinin sədrləri və digər rəsmi şəxslər ilə mənim görüşlərim olmuşdur.

Görüşlərdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Hörmətli həmkarlar, mənim məlumatım bu qədər. Diqqətinizə görə təşəkkür edirəm. İndi isə xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.11 dəq.) |
|---|---:|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bu gün biz gündəliyimizdə olan 11 məsələni müzakirə etməliyik. Gündəliyin 1-ci məsələsi İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatıdır. Məsələ ilə əlaqədar Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini hörmətli Seyfulla müəllim Əzimov və daxili işlər nazirinin müavini hörmətli Fazil müəllim Quliyev iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı yenə də salamlayıram.

İllik məlumatı parlamentdə təqdim etmək üçün mən Seyfulla Əzimova söz verirəm. Seyfulla müəllim, buyurun.

**S.Əzimov,** *Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İnsan alverinin beynəlxalq təhlükəsizliyə ciddi təhdid olaraq qalması, dünyanın bir sıra regionlarında baş verən silahlı münaqişələrin coğrafiyasının genişlənməsi, ucuz işçi qüvvəsinə olan tələbatın artması və sair amillər nəzərə alınaraq, bu sahədə kriminogen durum 2023-cü ildə də nəzarətdə saxlanılmış, profilaktik iş, cinayət təqibi, qurbanların müdafiəsi, beynəlxalq əməkdaşlıq, bütövlükdə, şəxsiyyətin və cəmiyyətin qanuni mənafelərinin həmin hüquqazidd əməllərdən qorunması Milli Fəaliyyət Planına uyğun davam etmişdir.

Hesabat ilində aidiyyəti normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi məqsədi ilə qanunvericilik aktlarında edilmiş dəyişikliklərlə Milli Fəaliyyət Planının icraçı qurumlarının siyahısı dəqiqləşdirilmiş, bəzi yarımbəndlərdə normativ hüquqi aktlara uyğunlaşdırmalar aparılmış, qurbanlar üçün yardım mərkəzinin yaradılması, onların xüsusi müəssisədə dərman preparatları ilə təmin edilməsi, təxirəsalınmaz tibbi və psixoloji yardımla əhatə olunması Tibbi Ərazi Bölmələri İdarəetmə Birliyinin funksiyalarına aid edilmiş, "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında işçi qrupun tərkibi, təşkili və fəaliyyəti Qaydası" təsdiqlənmişdir.

Ölkəmiz tərəfindən Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası da imzalanmış, "İnsan alveri cinayətindən zərər çəkmiş şəxslərə, insan alverinin

ehtimal olunan qurbanlarına və potensial qurbanlara xidmət edən "Qaynar xətt" haqqında və "İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaq haqqında" nizamnamələr təkmilləşdirilmişdir.

Bir sıra qanunlarda da dəyişikliklər edilərək cinsi toxunulmazlıq və cinsi azadlıq əleyhinə olan cinayətlərin yetkinlik yaşına çatmayanlara qarşı törədilməsi ağırlaşdırıcı hal kimi müəyyən edilmiş, uşaqların cinsi istismarı ilə bağlı cinayətlərə görə cəzalar sərtləşdirilmişdir. Həmin əməllərdə şübhəli bilinən, təqsirləndirilən və ya belə cinayətə görə məhkum olunmuşlar isə məcburi dövlət genom qeydiyyatından keçirilməli şəxslər siyahısına daxil edilmişlər.

Yetkinlik yaşına çatmayanları ictimai mənəviyyata zidd əməllərə cəlbetmə də cinayət tərkibinin əlaməti kimi müəyyənləşdirilmiş, bu cür məqsədlərlə uşaqların təqib edilməsinə görə qanunvericiliyə cinayət məsuliyyətini nəzərdə tutan müddəalar əlavə edilmişdir. Valideynin və ya digər qanuni nümayəndənin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayanların repatriasiyası və reabilitasiyası qaydalarını müəyyən edən fərman imzalanmış, eləcə də Nazirlər Kabineti tərəfindən uşaqların təhsilə, sosial, tibbi və psixoloji xidmətlərə əlçatanlığının təmin edilməsi sahəsində aidiyyəti dövlət orqanlarının vəzifələrini müəyyənləşdirən qərar qəbul olunmuşdur.

İnsan alverinin qarşısının alınması barədə metodik vəsaitlərin və maarifləndirici materialların hazırlanması və yayımlanması, həmin cinayətlərin törədilməsinə şərait yaradan hallarla bağlı cəmiyyətdə dözümsüzlük mühitinin yaradılması, bu işə vətəndaş cəmiyyəti institutlarının və media subyektlərinin cəlb edilməsi sahəsində fəaliyyət də

diqqət mərkəzində olmuşdur. Belə ki, təşkil edilmiş maarifləndirmə tədbirlərinin iştirakçılarına minlərcə vəsait paylanılmış, sosial şəbəkələrdə videoçarxlar nümayiş etdirilmiş, yeni yaradılmış "Sağlam uşaq" internet portalında 583 məqalə, 331 maarifləndirici çap materialı və video yerləşdirilmişdir.

Uşaqlarla keçirilən görüşlərdə insan alverinin mahiyyəti, doğurduğu təhlükələr və sair vacib məsələlər barədə məlumatlar və televiziya kanallarına müsahibələr verilmiş, bu cinayətlərin törədilməsinə şərait yaradan hallarla bağlı mediada informasiyalar paylaşılmış, müzakirələr aparılmışdır.

Şəhər və rayonlarda fəaliyyət göstərən 41 orta ixtisas təhsil müəssisəsində maarifləndirici seminarlar da keçirilərək həmin tədbirlərə şəhər və rayonların hüquq mühafizə orqanlarının əməkdaşları, gənclər, medianın, icra hakimiyyətlərinin və vətəndaş cəmiyyətinin nümayəndələri, yerli sahibkarlar, tibb, nəqliyyat, təhsil, sosial-müdafiə və məşğulluq mərkəzlərinin işçiləri, qeyri-hökumət təşkilatları cəlb edilmiş, xüsusi polis qurumunun internet səhifəsinə 48 məlumat yerləşdirilmişdir.

Məktəblərdə görüşlər, açıq dərslər, dəyirmi masalar təşkil edilmiş, test-sorğu keçirilərək risk qrupuna aid şagirdlər aşkarlanmış, onlara lazımi psixoloji dəstək göstərilmiş və erkən nikah haqqında maarifləndirici iş aparılmışdır. Ölkənin, demək olar ki, bütün regionlarında keçirilən tədbirlərdə iştirakçılara sosial videoçarxlar nümayiş olunmuş, metodiki vəsaitlər paylanmışdır.

Bütün bunlarla bərabər, aidiyyəti qurumların əməkdaşlarının peşəkarlıq səviyyəsini artırmaq məqsədi ilə onlar ixtisasartırma kurslarına cəlb edilmiş, müvafiq təlimlərdə insan alveri və məcburi əmək cinayətlərinin qarşısının

alınması, profilaktikası və bu növ əməllərin ictimai mənəviyyat əleyhinə olan cinayətlərdən fərqləndirilməsi mövzuları tədris olunmuşdur.

İnsan alverinin müxtəlif aspektləri, uşaqların istismara, zorakılığa məruz qalması və qurbanların məcburi əməyə cəlb edilməsi hallarına dair təlim proqramlarında konsulluq fəaliyyətini həyata keçirən şəxslər də mütəmadi iştirak etmiş, hər biri müvafiq nəşrlərlə təmin olunmuşdur.

Məktəb psixoloqları, turoperatorlar, hotellərin və turizm agentliklərinin nümayəndələri, miqrasiya orqanları, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz əməkdaşları, Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları və "ASAN xidmət" mərkəzlərinin könüllüləri üçün insan alveri problemlərinin mahiyyəti, formaları, qurbanları müəyyənetmə üsulları, potensial qurbanlara ilkin yardım, xidmətlər və sair mövzularda təlimlər keçirilmişdir. Bu qəbildən tədbirlər həm də hakimlər, vəkillər, din xadimləri, xaricdəki diaspor nümayəndələri üçün təşkil olunmuş, bütün təlimlərdə xüsusi polis qurumunun əməkdaşları mühazirəçi qismində iştirak etmişlər. Müvafiq mövzular, həmçinin ədliyyə, məhkəmə, prokurorluq orqanlarında qulluğa və Vəkillər Kollegiyası üzvlüyünə namizədlərin iştirak etdiyi xüsusi kurslarda tədris olunmuşdur.

Milli Fəaliyyət Planının icrası çərçivəsində erkən nikahların qabaqlanması işi də nəzarətdə saxlanılaraq 293 evliliyin qarşısı alınmışdır. Hesabat ilində "Mobil notariat" tətbiqi üzərindən həm ölkə daxilində, həm də xaricdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarına doğumun və ölümün elektron qeydiyyatı, ailə vəziyyəti və ailə üzvləri haqqında arayışların onlayn əldə edilməsi imkanı yaradılmışdır.

Doğumun dövlət qeydiyyatını səyyar qaydada səhiyyə müəssisələrində həyata keçirən qeydiyyat şöbələrinin sayı artırılaraq, ümumilikdə, 4746-ya yüksəlmiş, o cümlədən əvvəlki illərdə doğumu rəsmiləşdirilməmiş 427 uşağın qeydiyyatı təmin edilmişdir.

Valideyn himayəsindən məhrum olmuş və sağlamlıq imkanları məhdud olan 290 uşaq üçün "Karyera planlaması, ixtisas seçiminin düzgün formada edilməsi yolları" mövzusunda seminarlar və fərdi konsultasiyalar təşkil edilmiş, uşaq müəssisələrinin məzunu olan 6 nəfər peşə hazırlığına, daha 2 nəfər özünüməşğulluq proqramına cəlb olunmuşdur. Dövlət uşaq müəssisələrinin məzunu olan 10 gəncin mənzillə təmin edilməsi haqqında vəsatət qaldırılmış, Azərbaycanda əcnəbilər tərəfindən övladlığa götürülmüş müxtəlif ailələrdə qəyyumluğa və himayəyə verilmiş uşaqların həyat şəraiti ilə bağlı və təhsildən yayınma halları ilə aidiyyəti dövlət orqanları 1292 monitorinq aparmışdır.

Polis orqanları tərəfindən baxımsız, müxtəlif səbəblərdən ailə və pedaqoji təsir vasitələrindən kənarda qalan 132 uşağa və onların valideynlərinə "Uşaq hüquqları klinikası"nda, "Uşaq və gənclərin sosial reabilitasiyası mərkəzi"ndə hüquqi, psixoloji və digər yardımlar göstərilmişdir.

İnsan alverinə qarşı mübarizə üzrə qeyri-hökumət təşkilatları koalisiyası ilə imzalanmış Anlaşma Memorandumunun icrasında xüsusi ilə fərqlənən 18 qeyri-hökumət təşkilatları nümayəndəsi pul və diplomlarla mükafatlandırılmış, təqdim etdikləri ümumi dəyəri 94 min manatdan çox olan 11 layihə maliyyələşdirilmişdir. Bununla yanaşı, insan alveri cinayətlərinin qurbanı olmuş şəxslərin sosial reabilitasiyasına, sığınacaqda saxlanıl-

masına və onlara birdəfəlik müavinətlərin verilməsinə 120 min manat ayrılmışdır.

İnsan alveri və məcburi əməklə mübarizədə xarici tərəfdaşlarla əməkdaşlığın inkişaf etdirilməsinə də önəm verilərək bir sıra nüfuzlu beynəlxalq qurumların təmsilçiləri ilə görüşlər keçirilmiş, Amerika Birləşmiş Ştatlarının dövlət, ədliyyə və əmək departamentlərinin, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə ekspertlər qrupunun və digər təşkilatların sorğuları cavablandırılmış, habelə xüsusi polis qurumunun əməkdaşları mütərəqqi təcrübənin öyrənilməsi məqsədi ilə Ankara, Vyana, Madrid, Lion, Minsk və Almatı şəhərlərinə ezam olunmuşlar.

Hörmətli millət vəkilləri, Beynəlxalq Əmək, Beynəlxalq Miqrasiya və "Walk Free" təşkilatlarının insan alveri ilə bağlı cinayətlərin yayılmasının 2022-ci il tarixli qlobal qiymətləndirilməsində 27,6 milyon nəfərin məcburi əmək vəziyyətində olması və onlardan 11,8 milyonunu qadın və qızların, 3,3 milyonunu uşaqların təşkil etməsi ehtimalı vurğulanıb. Ölkəmizdə bu cür mənfi təmaüllərin profilaktikası məqsədi ilə 6500-dən çox işəgötürən və onların nümayəndələrinin iştirakı ilə işçilərin əmək hüquqları, o cümlədən məcburi əmək və insan alverinin qarşısının alınması mövzularında paytaxtda və regionlarda çoxsaylı tədbirlər keçirilmişdir. Həmçinin tikilməkdə olan 32 çoxmərtəbəli yaşayış binasında yoxlamalar aparılmış və 47 şəxsin əmək müqaviləsi olmadan işə cəlb edilməsi faktı aşkarlanaraq 13 işəgötürən inzibati məsuliyyətə cəlb edilmişdir. Dövlət Əmək Müfəttişliyi Xidmətinin keçirdiyi yoxlamalar zamanı 512 şəxsin əmək müqaviləsi olmadan işləməsi, 1 işçinin əmək funksiyasına aid olmayan işi yerinə yetirməyə məcbur edilməsi, habelə 15 yaşına çatmamış şəxsin işə cəlb olunması ilə bağlı 2 fakt da

müəyyən edilərək təqsirkar barədə qanunvericiliyə uyğun tənbeh tədbirləri görülmüşdür.

Əcnəbilərin Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyəti həyata keçirməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 5441 əcnəbiyə iş icazəsi verilmiş, 4773 əcnəbinin isə müvafiq icazə müddəti uzadılmışdır. Ümumən, həyata keçirilən qabaqlayıcı tədbirlər, o cümlədən Dövlət Məşğulluq Agentliyi tərəfindən iş axtaran və işsiz şəxslərdən 118 min 398 nəfərin, əmək haqlarının birgə maliyyələşməsi proqramı çərçivəsində 1198 nəfərin və kvota üzrə 2751 nəfərin işlə təmin edilməsi, 5628 şəxsin haqqı ödənilən ictimai işlərə, 17 min 362 nəfərin özünüməşğulluq proqramına cəlb olunması, 8370 nəfərə işsizlikdən sığorta ödənişinin təyin edilməsi, 9518 nəfərin peşə hazırlığı kurslarına yönləndirilməsi, 281 min 539 nəfərə peşə yönümlü məsləhət xidmətinin göstərilməsi vətəndaşların məcburi əməyin qurbanına çevrilmə riskini xeyli azaltmışdır. Belə ki, Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində aşkarlanmış 3 məcburi əmək faktı əsasında 2 cinayət işi başlanılmış və aparılmış araşdırmalarla həmin hüquqazidd əməllərdən zərər çəkmiş şəxslərin ölkə daxilində kənd təsərrüfatı sektorunda istismara məruz qalması məlum olunmuşdur. Müvafiq istiqamətdə davam etdirilən tədbirlərlə 8 miqrasiya kanalı müəyyən olunaraq 154 şəxs saxlanılmış və barələrində inzibati qaydada ölkə ərazisindən çıxarılma tətbiq edilmişdir.

Polis tərəfindən keçirilən reydlər zamanı isə küçə həyatına məruz qalan, o cümlədən dilənçilik edən və qeyri-qanuni qulluğa cəlb olunan 342 azyaşlı müəyyən

olunaraq onları hüquqazidd əməllərə təhrik edən 345 valideyn haqqında qanunauyğun tədbirlər görülmüş, uşaqlara müvafiq qayğı və yardım göstərilməsi, sosial problemlərinin həlli məqsədi ilə icra hakimiyyəti yanında fəaliyyət göstərən komissiyalara, qəyyumluq və himayədarlıq strukturlarına 504 material göndərilmişdir.

Onu da qeyd edim ki, həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə 159 insan alveri və insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 44 cinayət aşkarlanmışdır. Həmin faktlar üzrə 16 cinayət işi başlanılaraq 18 şəxs təqsirləndirilən şəxs qismində cəlb edilmiş, 11 cinayət işinin istintaqı tamamlanıb 14 nəfər məhkəmə məsuliyyətinə verilmiş, insan alverçilərinin 10-u haqqında ittihamedici hökmlər çıxarılmışdır. Hesabat ilində 17 insan alveri, 4-ü ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə 21 təqsirləndirilən şəxs yerli axtarışda olmuş, onlardan 9 nəfəri saxlanılaraq cinayət təqibi orqanına təqdim edilmişdir. Hazırda İnterpol kanalları ilə beynəlxalq axtarışı elan olunmuş 12 təqsirləndirilən şəxsin ölkəmizə ekstradisiyası üçün tədbirlər görülür.

Aşkarlanmış cinayətlərin strukturunda 58 fakt informasiya texnologiyalarının tətbiqi ilə törədilmiş əməllər olmaqla onlar üzrə 23 cinayət işi başlanılmışdır. Müəyyən edilmiş 91 insan alveri qurbanının hamısı Azərbaycan Respublikasının vətəndaşları olmuşdur. Onlardan 6-sı 18-25 yaş arası, 50-si 25-35 yaşlarında, 35-i və 35-dən yuxarı yaş həddində, habelə 24-ü paytaxt, 67-si respublikanın digər şəhər və rayonlarının sakinləridir.

Qurbanların müdafiəsi, bu istiqamətdə hüquqi, sosial-iqtisadi tədbirlərin məqsədyönlü icrası da diqqətdə saxlanılaraq 90 nəfərin hər birinə 700 manat birdəfəlik müavinət verilmiş, 68-i müvəqqəti yaşaması üçün Daxili

İşlər Nazirliyinin sığınacağına yerləşdirilməklə tibbi, sosial, psixoloji, hüquqi və digər yardımlarla təmin edilmişdir.

Digər tərəfdən, insan alverinin 14 qurbanı peşə kursla-rına yönəldilmiş, 10 nəfəri işlə təmin edilmiş, 8 qurbana şəxsiyyət vəsiqəsi verilmiş, 3 qurbana tibbi müalicə, 11 qurbana ünvanlı sosial yardım almaqda, 34 qurbanın ailə-lərinə qaytarılmasında və 1 qurbana cərrahiyyə əməliyyatı keçirməsində köməklik edilmiş, daha 1 şəxs isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin reabilitiasiya müəssisəsinə yerləşdirilmişdir. Həmin agentliyin yardım mərkəzinə və qeyri-hökumət təşkilatlarına istiqamətləndirilmiş 67 insan alveri qurbanı da diqqətdə olmuşdur.

Vətəndaş müraciətləri əsasında və qeyri-hökumət təşkilatları tərəfindən müəyyən edilmiş 37 potensial qur-bandan isə 16-sı hüquqi, 7-si psixoloji, 1-i tibbi yardım almış, 15 nəfər peşə kurslarına cəlb edilmək üçün Dövlət Məşğulluq Agentliyinə yönləndirilmişdir. Hesabat döv-ründə 98 qurbana və potensial qurbana maddi, Vəkillər Kollegiyasının üzvləri tərəfindən 105 qurbana məhkəmə baxışında və istintaq prosesində hüquqi yardım edilmiş-dir. Qurbanların sayı ümumi 49 nəfər olan uşaqlar da diqqətdə saxlanılaraq doğum haqqında şəhadətnamə və tədris ləvazimatları ilə təmin olunmuş, məktəbəqədər tədris proqramlarına cəlb edilmiş, daha 11 nəfərin aliment alması təşkil olunmuşdur.

Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin İnsan alverinə qarşı mübarizəyə dair və GRETA-nın "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyasının icrasının üçüncü qiymətləndirmə hesa-batında ölkəmizin qanunvericilik, cinayət təqibi, qurban-

ların müdafiəsi, sığınacağın maliyyələşdirilməsi və əməkdaşlıqla bağlı fəaliyyəti təqdir olunmuşdur.

Onu da qeyd edim ki, insan alverinə qarşı mübarizənin hüquqi müstəvidə həyata keçirilməsinə başlanıldığı 2004-cü ildən bu günədək olan müddətdə Azərbaycan Respublikası tərəfindən bir sıra beynəlxalq sənədlər ratifikasiya olunmuş, dövlət başçısı tərəfindən insan alverinə qarşı mübarizəyə dair dörd Milli Fəaliyyət Planı təsdiqlənmiş, Daxili İşlər Nazirliyinin strukturunda xüsusi polis qurumu yaradılmış, Milli Koordinator institutu təsis edilmişdir. Qurbanlar üçün sığınacaq, yardım mərkəzi, kömək fondu, "Qaynar xətt" telefon xidməti, rəsmi internet səhifəsi istifadəyə verilmiş, özündə 45 qeyri-hökumət təşkilatını birləşdirən İnsan Alverinə qarşı Qeyri-Hökumət Təşkilatları Koalisiyası ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Eyni zamanda, hökumət tərəfindən insan alveri qurbanlarının müəyyən edilməsi, sosial reabilitasiyası, xüsusi müəssisələrə yerləşdirilməsi, öz ölkələrinə repatriasiyası və milli istiqamətləndirmə mexanizmi qaydaları təsdiqlənmişdir. Göstərilənlər baxımından ötən 20 ildə əldə olunmuş müsbət nəticələrin davamlılığının təmin edilməsi qarşıda duran əsas məqsədlərdəndir. Bundan başqa, insan alverinə qarşı mübarizədə müstəsna rol oynayan sayca dördüncü Milli Fəaliyyət Planının icra müddəti cari ildə bitdiyindən həmin cinayətlərlə mübarizənin kompleks şəkildə və sistemli aparılması üçün 2025–2030-cu illəri əhatə edən növbəti konseptual sənəd layihəsi hazırlanacaqdır.

Transmilli mütəşəkkil cinayətkar birləşmələrin müasir informasiya kommunikasiya texnologiyalarından geniş istifadə etməsi nəzərə alınmaqla, bu sahədə xüsusi polis qurumu əməkdaşlarının peşə hazırlığının yüksəldilməsi,

mütərəqqi beynəlxalq təcrübənin tətbiqi, fəaliyyətin təkmilləşdirilməsi, internet üzərindən törədilən cinayətlərin hərtərəfli və səmərəli araşdırılmasını təmin edən elektron informasiyanın toplanması, bu sahədə beynəlxalq əməkdaşlığın, o cümlədən dövlətlərarası qarşılıqlı hüquqi və texniki yardımın genişləndirilməsi də müəyyən olunmuş hədəflərdəndir.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Çıxışımın sonunda bu mühüm sahədə dövlət siyasətinin həyata keçirilməsində yaxından dəstəyinizə görə, həmçinin səmərəli əməkdaşlıq edən dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinə və media işçilərinə dərin minnətdarlığımı bildirirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Seyfulla müəllim. Hörmətli həmkarlar, Milli Koordinatorun illik məlumatına parlamentin iki komitəsində – İnsan hüquqları komitəsində və Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. İnsan hüquqları komitəsinin rəyini bildirmək üçün mən komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun, komitənin rəyini bildirin.

**Z.Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Hörmətli sədr, hörmətli millət vəkilləri. İnsan alveri ilə mübarizə müstəqillik dövrümüzün son 30 illik hüquq mühafizə siyasəti, o cümlədən insan hüquq və azadlıqlarının qorunmasına yönələn dövlət kursunun ən mühüm nailiyyətidir. Dəyərləndirilməsini apardığımız 2023-cü il Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi dövründə milli iradənin simvolu olan 20 sentyabr Xankəndi zəfərinin qazanılması təkcə torpaq bütünlüyü və suverenliyimizi deyil, eləcə də uzun on illər vətəndaşlarımızın hüquq və mənafelərinə zərbə vuran, fiziki varlığını təhdid

edən separatizmin, beynəlxalq terrorun, qanunsuz silah ticarətinin, narkotiklərin qeyri-leqal dövriyyəsinin, mütəşəkkil cinayətkarlığın və digər qanunsuz əməllərin də aradan qaldırılmasında müstəsna rol oynadı. 30 illik işğala son qoyulması, ilk növbədə, insanlarımızın təhlükəsizliyinin dönməz təminatı deməkdir.

Şuşa və bütün azad torpaqlara 32 il sonra ilk sakinlərin qayıtdığı bir vaxtda Milli Məclis İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun sayca 19-cu məlumatını müzakirə edir. İndi yaşadığımız cari ildə insan hüquqlarının təmin edilməsində özünəməxsus statusu və missiyası olan Milli Koordinatorun və baş idarənin yaradılmasının 20 ili tamam oldu.

Ulu Öndər Heydər Əliyevin inkişaf etdirdiyi hüquq mühafizə orqanlarının 1993–2003-cü illərdə əldə etdiyi zəngin təcrübəni dövlətçiliyimizin sarsılmaz təməllərinə çevirməklə təkcə ictimai-siyasi sabitliyi təmin etmək və cinayətkarlıqla mübarizə aparmaq deyil, eləcə də 44 günlük Vətən müharibəsində düşmənə qarşı savaşda həyatlarını qurban verən, şəhid olan, nəhayət, son 4 ildə azad edilən bütün torpaqlarda ilk komendatura xidməti ilə vətəndaşlarımızın təhlükəsizliyini qoruyan, ən başlıcası, Böyük Qayıdışın uğurla həyata keçirilməsinə yaxından kömək edən polisimizin şərəfli fəaliyyətini ehtiramla vurğulamalıyıq, qeyd etməliyik.

Milli Koordinator hörmətli Seyfulla Əzimovun ətraflı təqdim etdiyi illik məlumatdan göründüyü kimi, keçmiş Sovet məkanında yalnız ölkəmizdə xüsusi statusda fəaliyyət göstərən baş idarə ötən il kütləvi maarifləndirməyə xüsusi önəm verib.

İkinci fəaliyyət istiqaməti cəza tədbirləridir. Beynəlxalq hesabatlarda məhkəmə sisteminin yumşaq hökmləri, şərti

cəzaları hər zaman mənfi hal kimi vurğulanırdı. Bu yöndə daha ciddi tədbirlər hörmətli Seyfulla müəllim tərəfindən qeyd olundu, üzərində dayanmıram.

Üçüncü istiqamət insan alverinin transmilli xarakteri nəzərə alınaraq, beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, qabaqcıl təcrübələrin öyrənilməsi, xarici hesabatlardan irəli gələn tövsiyələrin dəyərləndirilməsidir.

Əlbəttə, illik məlumat təkcə bir nazirliyin deyil, ölkə üzrə 32 mərkəzi və 68 yerli icra hakimiyyəti orqanının fəaliyyətinin məcmusudur. Bu, çox mühüm məsələdir, çünki mübarizə yalnız bir qurum vasitəsi ilə aparıla bilməz. Tam əminliklə demək olar ki, işçi qrupun aparıcı qüvvəsi kimi Daxili İşlər Nazirliyi ən əlçatan qurumdur, çünki nazir hörmətli Vilayət Eyvazov uzun illər Milli Koordinator kimi bu sahədə beynəlxalq və daxili tələbləri, yanaşmaları yaxşı bilir, ona xüsusi önəm verir. Parlament və daxili işlər orqanları arasında yüksək əməkdaşlıq mühiti formalaşıb. Əfv komissiyasının üzvü kimi deyə bilərik ki, məhkumlara münasibətdə mərhəmət və humanizm istənilərkən insan alveri cinayətini törədənlərə qarşı daxili işlər nazirinin hər zaman sərt, güzəştsiz mövqeyinin şahidiyik.

Məlumatın "Qanunvericilik" bölməsində, göründüyü kimi, icraçı qurumlarının siyahısı dəqiqləşdirilib, İnsan Averi Qurbanlarına Yardım Mərkəzinin çoxşaxəli funksiyaları TƏBİB-in funksiyalarına aid edilib, işçi qrupun tərkibi, təşkili və fəaliyyət qaydası təsdiqlənib.

Bəzi statistikalara diqqət edək. Baş idarə tərəfindən 47 şəxsin əmək müqaviləsi olmadan işlədiyi üçün 13 işəgötürən haqqında, ümumilikdə, 123 min manat cərimə tətbiqi, Dövlət Əmək Müfəttişliyi Xidmətinin 512 şəxslə bağlı, ümumilikdə, 2 milyon 374 min manat məbləğində

sanksiya tədbiri, 8 miqrasiya kanalının aşkarlanaraq 154 şəxsin saxlanılması, küçə həyatı, dilənçiliyə və qeyri-qanuni qulluğa cəlb edilən 342 azyaşlının müəyyən edilməsi, 159 insan alveri faktı üzrə 16 cinayət işinin başlanması, 12 nəfərin İnterpol kanalı ilə beynəlxalq axtarışının davam etdirilməsi, əlbəttə ki, mühüm işlərdir.

Milli Fəaliyyət Planının icrası çərçivəsində 293 erkən evliliyin qarşısının alınmasına hamımız ciddi bir siqnal kimi yanaşmalıyıq. Belə ki, Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, 2022-ci ildə 15-17 yaşda olan uşaqlar tərəfindən 2011 uşaq dünyaya gəlib. Onlardan 1880-i həmin qadınların birinci, 120-si ikinci, 11-i isə üçüncü uşağı olub. Təsəvvür edin, özü uşaq ikən ana olan belə övladları fiziki və psixoloji zorakılığa cəlb edən valideynlər, tərəf müqabilləri və ənənələr istismarçı kimi ən ağır cəzaya layiqdirlər.

Eyni zamanda, ilk dəfə, kiber məkanda insan alveri faktlarının aşkarlanması, müasir kommunikasiya vasitələri ilə qurbanları ələ keçirən cinayətkar qruplara qarşı "WhatsApp", "İnstagram", "Telegram" sosial şəbəkələrində aparılan mübarizə 58 fakta görə cinayət işinin qaldırılması ilə nəticələnib. Görülən tədbirlər rəqəmsal sistemin diqqət mərkəzində saxlanıldığını göstərir. Baş idarə ilk dəfə insan alveri traffikinin sosial şəbəkələr üzərindən tranzit kanallarının aşkarlanmasını həyata keçirib. Xatırladaq ki, artıq Daxili İşlər Nazirliyinin tərkibində kiber cinayətkarlıqla mübarizə üzrə yeni baş idarə fəaliyyət göstərir və informasiya məkanı fasiləsiz izlənilir, operativ tədbirlər görülür.

İnsan alveri və məcburi əməklə bağlı 91 nəfər qurbanın, əsasən, Türkiyə və Rusiyada olması hər iki dövlətlə hüquq mühafizə və ekstradisiya sahəsində çalışmaların daha da

gücləndirilməsi zərurətini ortaya qoyur. “152 qaynar xətti”nə daxil olan 9626 zəng, yəni ay üzrə 900-ə yaxın müraciət göstərir ki, əhali tərəfindən dövlət orqanlarına inam var, insanlar məruz qaldıqları cinayətlərə görə polis orqanları tərəfindən tədbirləri səmərəli hesab edirlər.

Məlumatdan göründüyü kimi, son 20 ildə insan alveri cinayətlərinin ümumi sayı 2326 olub. Məsuliyyətə cəlb olunanların sayı isə 636 nəfər təşkil edib. Əlbəttə, təəssüflər olsun ki, onlardan 541-i qadın, 95-i isə kişidir.

Ötən il qeyri-hökumət təşkilatlarının 11 layihəsinə 94 min manat qrant vəsaiti ayrılıb. Bu rəqəm 4 il əvvəl 53 layihə üzrə 412 min manat təşkil edirdi. Bütün beynəlxalq hesabatlarda vətəndaş cəmiyyətinin fəaliyyətinə dəstək ən mühüm indikatorlardan biri sayılır və arzu edirik ki, o rəqəmlər müvafiq agentlik tərəfindən azaldılmasın.

ABŞ-ın, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə ekspertlər qrupu – GRETA-nın dəyərləndirmələrinə hörmətli Seyfulla müəllim geniş yer verdi. Mənim çıxışımın mətni mediada geniş yayılacaq. Ona görə əlavə zaman almaq istəmirəm.

Yekunda insan alverinə qarşı mübarizədə müstəsna rol oynayan sayca dördüncü Milli Fəaliyyət Planının icra müddəti cari ildə bitdiyindən həmin cinayətlərlə mübarizənin kompleks şəkildə və sistemli aparılması üçün 2025–2030-cu illəri əhatə edən növbəti konseptual sənədin hazırlanması məqsədi ilə əvvəlki planların geniş ictimai müzakirələrinin keçirilməsini, yekunlara obyektiv qiymət verilməsini və gələcək vəzifələri müəyyələşdirmək üçün işçi qrupun tərkibini genişləndirməyi bir daha təklif edirik.

Milli Koordinatorun məlumatını qənaətbəxş sayır, millət vəkillərini ona müsbət səs verməyə dəvət edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim. Hörmətli həmkarlar, dediyim kimi, məsələyə 2-ci bir komitədə də baxılıb. Mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, sizin komitədə baxılıb, xahiş edirəm, məlumat verin.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Komitələrin birgə iclasında Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri tərəfindən də Milli Koordinatorun digər dövlət orqanları, qeyri-hökumət təşkilatları, media ilə yüksək səviyyədə əlaqələndirməni həyata keçirməsi vurğulanmışdır. Eyni zamanda, o da vurğulanmışdır ki, Daxili İşlər Nazirliyi tərəfindən müraciətlərə, o cümlədən deputat sorğularına operativ yazılı və şifahi cavabların verilməsi təqdirəlayiq haldır. Komitə bu sahədə görülən işləri müsbət dəyərləndirir və bu işlərin davam etdirilməsini bir daha tövsiyə edir. Komitəmizin ümumi rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, biz müzakirəyə keçirik. Buyurun, çıxış etmək istəyənlər, yazılsınlar. İlk öncə, gəlin, reqlamenti müəyyən edək. 5 dəqiqə, hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qüdrət Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev**. Hörmətli sədr, hörmətli qonaqlar, hörmətli həmkarlar, media nümayəndələri. Mən ilk öncə, Sahibə xanım, Sizi və nümayəndə heyətimizin üzvlərini təbrik edirəm ki, bir neçə səfər həyata keçirmisiniz. Həm Siz, həm də Milli Məclisin deputatları bizim xarici

siyasətin həyata keçirilməsində xüsusi rol oynayır və mən bunu böyük minnətdarlıq hissi ilə qeyd eləyirəm.

Hörmətli sədr, müzakirə olunan məsələ ilə bağlı qeyd eləmək istəyirəm ki, “İnsan alverinə qarşı mübarizə haqqında” Qanunun 7.5-ci maddəsində qeyd olunur: “Milli Koordinator Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına, Azərbaycan Respublikasının Milli Məclisinə və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinə (ombudsmana) Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumat təqdim edir”.

Bizim digər müvafiq dövlət orqanları da Milli Məclisə ya məlumat verirlər, ya da Milli Məclis qarşısında çıxış edirlər. Məsələn, Konstitusiyanın 95-ci maddəsinin 20-ci bəndinə görə, bələdiyyələr Milli Məclisdə hesabat verirlər. O zaman da mən söyləmişdim ki, bu, fiziki baxımdan, sadəcə olaraq, mümkün deyil. Bundan başqa, Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi olur və qanunun 9-cu maddəsində qeyd olunur ki, yəni müvafiq orqan Milli Məclisə illik məruzə təqdim edir. Diqqət yetirdinizsə, bir qanunda yazırıq, məlumat təqdim edir, o birisində yazırıq ki, məruzə təqdim edir.

“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Qanunun 14-cü maddəsində qeyd olunur ki, ombudsman Milli Məclis qarşısında məruzə ilə çıxış edir. Sonra “Hesablama Palatası haqqında” Qanunda da qeyd olunur ki, Hesablama Palatası Milli Məclisə illik hesabat təqdim edir. Yəni burada qeyd olunduğu kimi, hesab edirəm ki, yalnız hesabatlar Milli Məclisdə məruzə olunmalıdır və onun nəticələrinə uyğun olaraq, o da nəticə doğurmalıdır. Hesabat qeyri-qənaət-

bəxş hesab olunursa, düşünürəm ki, həmin orqanın başında duran şəxs, yaxud Hesablama Palatasının auditorları istefaya göndərilməlidirlər.

Baxın, Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana bələdiyyələr hesabat verir. Biz qanunda yazmışıq ki, əgər inzibati nəzarəti həyata keçirən orqan onların hesabatını qeyri-qənaətbəxş sayarsa, həmin bələdiyyənin buraxılması ilə bağlı Milli Məclisə təqdimat verir. Amma digər hallarda bu, nəzərdə tutulmur. Əvvəlcə, qanunvericiliyin dili ilə bağlı qeyd eləyim, bütün qanunlarda bu, eyni formada yazılmalıdır ki, "məruzə ilə çıxış edir", yaxud "məlumat verir", "məlumat təqdim edir" və sair.

İkinci. Hörmətli sədr, onu diqqətinizə çatdırmaq istəyirəm, "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunda qeyd olunub ki, məlumat təqdim eləyir. Yəni cəmiyyət üçün bundan da təhlükəli cinayətlər var. Məsələn, korrupsiyaya qarşı mübarizə, narkotiklərə qarşı mübarizə, kiber cinayətkarlıq olsun. Yəni ümumiyyətlə, biz "Korrupsiya qarşı mübarizə haqqında" Qanun qəbul eləmişik, amma orada qeyd eləməmişik ki, Milli Məclisə hesab verilir. Bir çox hallarda elə insan alveri də korrupsiya cinayətlərindən doğur. Yəni bu cinayətlər cəmiyyətin əsasını dağıdır və digər cinayətlərə də yol açır. Ona görə də mən hesab edirəm, bu qanunlarda, – bax, "Gender bərabərliyi haqqında" Qanunda var ki,  orada da ildə Milli Məclisə məlumat təqdim edilir, – ümumiyyətlə, bunların hamısı çıxarılmalıdır. Buna ehtiyac yoxdur. Sadəcə, müvafiq nazirliklər profil, uyğun komitələrdə işgüzar müzakirələr keçirməlidir, orada problemlər müzakirə olunmalıdır və ehtiyac olarsa, müvafiq komitə hansısa məsələni plenar iclasa çıxara bilər.

Polislə bağlı qeyd eləmək istəyirəm ki, Azərbaycanda polis sabitliyin qorunmasında müstəsna rol oynayır, cinayətkarlığa qarşı mübarizə aparır. Onların əmək haqları çox azdır, mən bunu hər zaman qeyd eləmişəm. Baxmayaraq ki, onlar öz razılıqlarını, məmnunluqlarını ifadə edirlər. Mən hesab edirəm, bir çox problemlər ondan qaynaqlanır ki, bizdə polis əməkdaşlarının təhsil səviyyəsi aşağıdır. Hərbdə olduğu kimi, polisdə də polis kollecləri yaradılmalıdır, orada iki illik tədris keçirilməlidir və onlar orada fiziki hazırlanmalıdır. Onlar oraya testlə qəbul olmalıdırlar ki, onların qavraması olsun. Misal üçün, deyilə bilər ki, polis nəfəri işə götürüləndən sonra hazırlıq kurslarına göndərilir. Amma onun qavraması aşağıdırsa, onu mənimsəyə bilməyəcək. Nə öz hüquq və vəzifələrini, nə də vətəndaşların hüquq və vəzifələrini öyrənə bilməyəcəklər. Ona görə mən hesab edirəm ki, bizim bu istiqamətdə müvafiq komitədə bir dinləmə keçirilsə, yaxşı olar. Mən, ümumiyyətlə...

**Sədrlik edən.** Qüdrət müəllim, məlumata münasibətiniz necə oldu?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Müsbət. Sizin dediklərinizin hamısı, əslində, terminlərin uyğunlaşdırılmasına aid idi və bəzi struktur dəyişmələri – yəni komitələrdə olsun, nəinki, plenar iclasda. Bunu sonra müzakirə edərsiniz. Əsas məsələ isə odur ki, Sizin münasibətiniz müsbətdir. Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, qonaqlar və media təmsilçiləri. Mən, əlbəttə, Milli Koordinatorun fəaliyyətinə öz münasibətimi ifadə eləyəcəyəm. Ancaq ilk öncə, hörmətli xanım sədr, Sizin vermiş olduğunuz bu məlumata qısa olaraq

fikrimi bildirmək istəyərdim. Milli Məclisin, bütövlükdə, beynəlxalq münasibətlər sistemində kifayət qədər fəal rol oynaması və şəxsən Milli Məclisin sədri kimi Sizin ən müxtəlif platformalarda çıxışlarınız, keçirmiş olduğunuz görüşlər, apardığınız müzakirələr möhtərəm cənab Prezidentin xarici siyasət konsepsiyasının tərkib hissəsi kimi ölkəmizə və onun beynəlxalq nüfuzuna ciddi töhfələr verməkdədir. Bu baxımdan Sizə uğurlar arzulayıram və təbrik edirəm. Buna görə də bir millət vəkili kimi öz təşəkkürümü, minnətdarlığımı bildirmək istəyirəm.

Milli Koordinatorla bağlı fikrimi deməmişdən öncə onu qeyd etməyi zəruri hesab edirəm ki, Daxili İşlər Nazirliyinin, bütövlükdə, Azərbaycan dövlətçiliyində çox müstəsna xidmətləri var. Azadlıq və müstəqillik illərində, eyni zamanda, dövlətçiliiyimizin yaranması və möhkəmlənməsi prosesində Daxili İşlər Nazirliyi çox böyük fədakarlıq nümayiş etdirmişdir. Xüsusən ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsində Azərbaycanda separatçı xunta rejiminin tamamilə darmadağın edilib, onun ağır nəticələrinin aradan qaldırılmasında Daxili İşlər Nazirliyi, sözün həqiqi mənasında, öz yüksək peşəkarlıq fəaliyyətini qurmuş və bu gün də davam etdirməkdədir.

Koordinatorun fəaliyyəti, əlbəttə, olduqca təqdirəlayiqdir. Əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də Milli Koordinator öz fəaliyyətini yüksək peşəkarlıq səviyyəsində qura bilmişdir. Bu məsələ ilə bağlı, deyildiyi kimi, bir neçə gün öncə iki komitənin birgə yığıncağı keçirildi. Biz orada iştirak etdik, lazımi fikirlərimizi söylədik. Həm də xüsusi ilə qeyd etmək istəyərdim ki, həmin müzakirələrdə bilavasitə insan alverinə qarşı mübarizə ilə məşğul olan qeyri-hökumət təşkilatları da kifayət qədər fəal iştirak

etdilər, müzakirələrdə öz fikirlərini söylədilər. Düşünürəm, bu cür müzakirənin özü də elə Milli Koordinatorun fəaliyyətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir və sözsüz ki, özünün müsbət nəticəsini verəcəkdir. Həm Seyfulla müəllimin bu gün təqdimatında, həm də koordinatorun vermiş olduğu məlumatla tanış olduqda, bəlli olur ki, Milli Koordinator öz fəaliyyətini üç istiqamətdə qurmuşdur.

Birincisi, maarifləndirici-profilaktik iş. Bu, əvvəlki illərlə müqayisədə daha da genişlənmişdir. Yeri gəlmişkən, demək istəyərdim ki, bunun miqyasını daha da artırmaq üçün çox yaxşı olardı, cəmiyyətin bütün istiqamətlərində, bütün platformalarında maariflənmə işi gücləndirilsin. Bununla bağlı ayrı-ayrı çarxlar hazırlanıb televiziyalarda verilsin, internet resurslarından istifadə edilərək geniş yayılsın.

İkinci, Milli Koordinator ölkəmizdə fəaliyyət göstərən müvafiq qurumlarla, eyni zamanda, beynəlxalq təşkilatlarla öz işini yüksək səviyyədə qura bilmişdir və bu ənənə artıq getdikcə daha peşəkar şəkil almaqdadır.

Üçüncü isə, təbii ki, Daxili İşlər Nazirliyi və Milli Koordinator fəaliyyətində cinayətin kifayət qədər eybəcər və ağır forması olan insan alverinə qarşı öz prinsipiallığını bir daha nümayiş etdirmiş və lazımi cinayət təqiblərini həyata keçirmişdir. Onların fəaliyyətini müsbət qiymətləndirirəm, gələcək fəaliyyətlərində uğurlar diləyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**A.Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. İlk növbədə, qısa bir zamanda dörd ölkəyə səfərinizə, bu səfərlər zamanı Azərbaycan həqiqətlərini dünyaya çatdırmağınıza,

milli maraqlarımızı yüksək səviyyədə qorumağınıza görə Sizə, nümayəndə heyətinin üzvlərinə təşəkkür edirəm. Bu, bir daha göstərir ki, parlamentin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində xüsusi rolu var. O cümlədən beynəlxalq birlikdə fəaliyyətimiz də bu qəbildən olan məsələlərdir. Sahibə xanım, uğurlu fəaliyyətinizə görə təşəkkür edirəm.

İnsan alveri ilə mübarizə bu gün bəşəriyyətin rastlaşdığı çox ağır məsələlərdən biridir və bunun az və ya çox olması məsələsi bir o qədər önəmli deyil. Əsas məsələ odur ki, belə bir cinayət faktoru var və buna qarşı mübarizə bütün dünyanın işidir. Mən hesabata baxdım, həmin hesabatda Azərbaycanda olan statistik rəqəmlər insan sayına nisbətdə elə də böyük deyil. Yəni dünyada, digər ölkələrdə, hətta aparıcı ölkələrdə olan statistik faizlər bizimkindən qat-qat çoxdur. Ancaq bununla belə, sevindiricidir ki, Azərbaycan dövləti buna qarşı mübarizəni çox vacib bir mübarizə halı hesab edir. Eyni zamanda, nəzərə alaq ki, ildən-ilə insan alveri cinayətinə yeni hallar daxil olur və bu da diqqətdə saxlanılır. Daxili İşlər Nazirliyi öz səlahiyyətinə çox məsuliyyətlə yanaşır. Azərbaycanda əmin-amanlığın, ictimai asayişin qorunmasında Daxili İşlər Nazirliyimizin, polis işçilərimizin çox böyük rolu var. Fürsətdən istifadə edərək onlara bu məsuliyyətli, çətin işlərində uğurlar arzulayıram və təşəkkürümü bildirirəm.

O ki qaldı insan alveri ilə bağlı Azərbaycanda aparılan mübarizəyə, həm hörmətli daxili işlər nazirinin birinci müavininin hesabatında, həm də bizə təqdim edilən hesabatda bununla bağlı kifayət qədər statistika var. Bunları təkrarlamaq istəməzdim. Sadəcə, bir neçə təklifimi vermək istəyərdim. Birinci təklifim odur ki, İnsan alveri ilə mübarizə üzrə Milli Koordinatorun hesabatında

Milli Məclisin iclasına, eyni zamanda, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və ombudsmanın nümayəndəsi dəvət edilsin. Müzakirələrdə həmin nümayəndələr öz səlahiyyətlərinə aid olan məsələlərlə bağlı qısa hesabatla çıxış eləsələr, bu məsələ barəsində tam dolğun bir hesabat əldə etmiş olarıq. Düzdür, onların özlərinin hesabatında bu məsələyə toxunulur. Ancaq bununla belə, insan alveri ilə mübarizə məsələsində onların da fəaliyyətini görmək istəyərdik.

İkinci təklifim ondan ibarətdir ki, bu cinayət halları, şübhəsiz, Azərbaycanın müxtəlif yerlərində araşdırılır. Çox istəyərdik ki, bu məsələlərin araşdırılmasında və yaxud da bu məsələ ilə mübarizədə deputatların da potensialından istifadə edilsin. Ya bizə seçki dairəmiz üzrə məlumat göndərilərdi, bu hallar üzrə Daxili İşlər Nazirliyinə biz təşəkkür eləyərdik, mütləq əks reaksiyamız olardı. Həm hər bir deputat bu məsələ ilə bağlı görülən işlərdən məlumatlı olardı, həm də mənim şübhəm yoxdur ki, Daxili İşlər Nazirliyi ilə bu məsələdə əməkdaşlıq edərdi. Eyni zamanda, ayrı-ayrı hallarda birgə fəaliyyət göstərməyə də hazıram. Mən fəaliyyəti müsbət qiymətləndirirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Təkliflərinizə görə də çox sağ olun. Düşünürük ki, həm dəvət məsələsi, həm də deputatlara hansısa məlumatlar verilsəydi və onlar həmin tədbirlərdə iştirak etsəydilər, yaxşı olardı. Səbinə Xasayeva. Buyurun.

**S.Xasayeva**. Hörmətli xanım sədr, hörmətli Seyfulla müəllim, dəyərli həmkarlar. Bu gün biz İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2023-cü ildə Azərbaycan Respublikasında İnsan alverinə qarşı mübarizəyə dair məlumatını müzakirə edirik. Böyük təəssüf hissi

ilə qeyd etmək lazımdır ki, insan alveri müasir dünyada insan hüquqlarının ən ağır pozuntularından biri olaraq qalır və bütün dünyada milyonlarca insana təsir edir. Hökumətlərin, qeyri-hökumət təşkilatlarının və beynəlxalq qurumların əhəmiyyətli səylərinə baxmayaraq, insan alverinə qarşı mübarizə hələ də çox ciddi və mürəkkəb problem olaraq qalır. Bu dəhşətli cinayət təkcə cəmiyyətin ən həssas üzvlərini istismar etmir, həm də qanunun aliliyini və cəmiyyətin quruluşunu sarsıdır. Bütün bunları nəzərə alaraq, məlumatdan aydın olur ki, 2023-cü ildə ölkəmizdə insan hüquq və azadlıqlarına ciddi təhlükə yaradan, şəxsiyyətin azadlığını məhdudlaşdıran və ləyaqətini alçaldan insan alverinə qarşı mübarizə daha da gücləndirilmiş, "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı"na əsaslanaraq ciddi addımlar atılmışdır.

Məlumatın əhatə etdiyi dövrdə 293 erkən evliliyin qarşısının alınması çox mühüm faktdır və bu sahədə qazanılan uğurdur. Əlbəttə, bu cür xoşagəlməz halların, ümumiyyətlə, baş verməməsi üçün maarifləndirmə tədbirlərinin daha da artırılması və cəmiyyətin həssas və hədəf qrupları arasında yayılması daha çox cinayətlərin qarşısını ala bilər. Nəzərə alsaq, şəxslərin insan alverinin hədəfinə çevrilməsi bir sıra hallarda məlumatsızlıqdan irəli gəlir, mümkün olan bütün formalarda, xüsusən də daha erkən yaş qruplarında maarifləndirmə işləri aparılmalıdır ki, şəxslər özlərini necə qoruya biləcəklərini öyrənsinlər. Qeyd edilən dövrdə işsiz şəxslərin işlə təmin olunmasına köməklik göstərilməsi, özünüməşğulluq proqramına cəlb edilmələri ilə yanaşı, peşə təhsilinə yönəldilmələri və ya peşəyönümlü məsləhət xidmətinin göstərilməsi xüsusi ilə dəyərlidir, onların əməyinin

istismarının qarşısını almağa kömək edir və eyni zamanda, yeni peşə növü öyrənərək öz gələcəklərini özlərinin qurmalarına təkan verir.

Ümumilikdə, məlumatdan bir daha aydın olur ki, keçən il ərzində İnsan alverinə qarşı ciddi mübarizə tədbirlərinin, istər maarifləndirmə, istər cinayət törədənlərə qarşı sərt cəza tədbirlərinin görülməsi, istərsə də qurbanların cəmiyyətə qazandırılması istiqamətində həyata keçirilib. Lakin təəssüflə qeyd etmək lazımdır ki, gün keçdikcə bütün dünyada insan alverinə qarşı mübarizə nə qədər güclənsə də, insanların istismarını hədəf alan yeni formalar ortaya çıxır və öz qurbanlarının sayını daha da artırır. Buna görə də beynəlxalq əməkdaşlığın, eyni zamanda, qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın daha da gücləndirilməsi bu sahəyə daha böyük töhfələr verə bilər. Lakin bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, dövlət qurumlarının bu sahədəki əməyinə dəstək olmaq məqsədi ilə cəmiyyətin hər bir üzvü də insan alverinə qarşı mübarizə ilə bağlı daha həssas və məlumatlı olmalı, şübhəli hallarla bağlı müvafiq qurumlara məlumat verməlidir. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqiyə Naxçıvanlı. Buyurun.

**A.Naxçıvanlı.** Çox sağ olun, Sahibə xanım. Hörmətli Sahibə xanım, hörmətli Seyfulla müəllim, hörmətli həmkarlar və media nümayəndələri. İlk növbədə Milli Koordinator, daxili işlər nazirinin birinci müavini hörmətli Seyfulla müəllimin burada olmağından istifadə edərək demək istəyirəm ki, polis işçilərinin dövlətimizin, xalqımızın keşiyində göstərdikləri dözümlü və gərgin fəaliyyəti əvəzsizdir. Buna görə də Daxili İşlər Nazirliyinin rəhbərliyinə, bütün əməkdaşlarına dərin təşəkkürümü bildirirəm. O cümlədən bildirmək istəyirəm

ki, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı ilə tanışam və ona səs verəcəyəm.

İnsan hüquq və azadlıqlarının müdafiəsi, bütün zorakılıq, o cümlədən insan alverinin və əməyinin istismarı hallarının aradan qaldırılması dövlətin əsas prioritetlərindən biridir. Ölkəmizdə bu istiqamətdə qanunvericilk bazası və normativ hüquqi aktlar əsasında mühüm işlər görülür. Daxili İşlər Nazirliyi insan alveri cinayətlərinin aşkar edilməsi, qurbanların reabilitasiyası və inteqrasiyası ilə bağlı sistemli tədbirlər həyata keçirir. Xüsusi ilə 2006-cı ildə "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulu, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator institutunun yaradılması və İnsan alverinə qarşı mübarizə üzrə milli fəaliyyət proqramının qəbulundan sonra ölkəmizdə insan alverinin ən müxtəlif təzahürlərinə qarşı mübarizə geniş vüsət almışdır.

Milli Koordinatorun insan alverinə qarşı mübarizəyə dair məlumatından da göründüyü kimi, həyata keçirilən işlər kifayət qədər çoxşaxəli olmuşdur. 2024-cü ildə insan alverinə qarşı mübarizədə əsas diqqət cinayət təqibinin və qanunvericiliyin təkmilləşdirilməsinə, məcburi əməyin qarşısının alınmasına, qurbanların və ehtimal olunan qurbanların təhlükəsizliyinin gücləndirilməsinə, beynəlxalq əməkdaşlığın və idarələrarası əlaqələrin daha da sıxlaşdırılmasına, maarifləndirmə və məlumatlandırma işinin əhatəsinin genişləndirilməsinə yönəlmişdir. Xüsusi ilə vurğulamaq istəyirəm ki, qeyd etdiyimiz kimi, ölkəmizdə insan alveri cinayətlərinə qarşı mübarizənin səmərəli aparılması, qurbanların hüquqlarının müdafiəsi imkanlarının gücləndirilməsini və genişləndirilməsini təmin edən işlək qanunvericilik bazası formalaşmışdır.

Ancaq bu gün yenə də erkən nikah, zorakılıq, dilənçilik, xüsusi ilə uşaqların məcburi əməyə cəlb olunması faktları az deyil. Düşünürəm ki, bu kimi hallara qarşı mübarizədə cinayət təqibi ilə yanaşı, geniş maarifləndirmə tədbirləri də həyata keçirilməlidir. Bu işdə aidiyyəti dövlət orqanları, xüsusi ilə Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə yanaşı, qeyri-hökumət təşkilatları və media orqanları da Daxili İşlər Nazirliyinə dəstək olmalıdırlar. Düzdür, bəzən müəyyən təşkilatlar standart olaraq 5-10 nəfərdən ibarət tədbirlər həyata keçirir. Ancaq bununla bu işi yekunlaşdırmaq olmaz.

Fikrimizcə, insan alveri kateqoriyasına aid bütün prioritetlər üzrə maarifləndirmə və məlumatlandırma kütləvi, müasir üsullarla olmalıdır. Qeyd etdiyimiz kimi, ölkəmizdə insan alveri ilə bağlı qanunvericilik bazası mükəmməldir, fikrimizcə, bu qanunların icrası ilə bağlı nəzarət mexanizmi gücləndirilməli və mütəmadi monitorinqlər təşkil olunmalıdır. Bildiyiniz kimi, təhlükəsiz internet problemi artıq bütün dünyanı düşündürür. Xüsusi ilə təcrübəsi, informasiyası az olan, düşünmək qabiliyyəti o qədər də yetkin olmayan uşaqlara qarşı virtual aləmdə zorakılıq əməlləri geniş yayılmaqdadır. Uşaqların zərərli informasiyadan qorunması haqqında qəbul etdiyimiz qərar və cənab Prezidentin imzaladığı qanun var. Məncə, düşünürəm ki, bu qanunun tam şəkildə icrasına nəzarət olunmalıdır. Bu qanunu pozan qanunvericilikdə nəzərdə tutulan kimi cəzalandırılmalıdır.

Ümumiyyətlə, Daxili İşlər Nazirliyinin, əlaqədar qurumların uşaqların zorakılıqdan müdafiəsi, uşaqların internet təhlükəsizliyi, uşaq hüquqlarının qorunması, erkən evlilik, uşaqların istismarı ilə bağlı apardıqları pro-

filaktik tədbirləri və onların müsbət nəticələri ilə bağlı məlumatları təqdirəlayiq hesab edirəm. Hesab edirəm ki, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı yüksək səviyyədə və peşəkarlıqla hazırlanıb, münasibətim müsbətdir, səs verəcəyəm və deputat həmkarlarımı da səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aqiyə xanım. Təklif var, səsə qoyaq. Təkid edənlər var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təkid edənlər var, bir dəqiqə. Aydın Hüseynov. Aydın müəllim, sualınız var? Buyurun.

**A.Hüseynov.** Bir sualım olacaq. Hörmətli Zahid müəllimlə bu barədə geniş bir fikir mübadiləsi apararıq. Burada məlumat gedir: Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə. Başqa bir formada "торговля людьми", yəni insanlıq, burada söhbət fiziki baxımdan insanın alverindən getmir. Maşın alveri, insan alveri. Burada söhbət insanlığın alverindən gedir. Ona görə də mən hesab edirəm ki, məlumatın adı Azərbaycan Respublikasında insanlar üzərində alverə qarşı olmalıdır. Bu, daha dəqiq olar.

**Sədrlik edən.** Mən çox üzr istəyirəm, Siz dediniz "торговля людьми" – insanlıq?

**A.Hüseynov.** İnsanlar anlamına da gəlir.

**Sədrlik edən.** Rus dilində? "Людьми" – insanların. Yox, düzgün tərcümə etmirsiniz. Onu sonra işçi qaydada danışarıq. Əsas fikriniz nədir?

**A.Hüseynov**. Bəyənirəm.

**Sədrlik edən.** Əsas odur. Hörmətli həmkarlar, 3 nəfər təkid etdi. Razi Nurullayev, Siyavuş müəllim və Musa Qasımlı. Mən bu 3 nəfərə söz verəcəyəm. Xahiş edirəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Kim? Yaxşı, Etibar müəllim, səsinizi eşitdik. Çoxdandır, səsinizə görə darıxmışdıq. Buyurun, çıxış edin.

**E.Əliyev.** Sahibə xanım, söz verdiyinizə görə təşəkkür edirəm. İlk öncə qeyd edim ki, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı struktur baxımından mükəmməldir, geniş məlumatlarla zəngindir. Ən mühüm istiqamət kimi qarşıda duran vəzifələr daha aydın müəyyənləşdirilmişdir. Müsbət istiqamətlərdən biri qanunvericilik sahəsində olan yeniliklərdir. Məsələn, Nazirlər Kabinetinin 2023-cü il 16 may tarixli 158 nömrəli Qərarı ilə "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun tərkibi, təşkili və fəaliyyəti qaydası" təsdiqlənmişdir. İşçi qrupu yaradılmasını tezləşdirmək bu sahədə fəaliyyəti gücləndirəcək. Burada geniş inklüzivlik təmin edilməlidir və işçi qrupun tərkibinə bir millət vəkilinin daxil edilməsi koordinasiyanı əlverişli edə bilər.

İnsan alveri "İnsan alveri haqqında" Birləşmiş Millətlər Təşkilatının Protokolunda 3 elementli sistemdə təsvir olunur: İnsan alveri ilə məşğul olanların fəaliyyəti, vasitə və məqsəd. Məlumatda biz bu 3 elementin təsvirini aydın şəkildə görürük. "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı" başa çatır. Məlumatın qarşıda duran vəzifələrlə bağlı paraqrafında 2025–2030-cu illəri əhatə edən növbəti konseptual sənəd layihəsinin hazırlanması göstərilir. Ümid edək ki, bu sənəd əvvəlki illərin təcrübəsinə söykənərək daha mükəmməl hazırlanacaq. Bu proses işçi qrupun yaradılması ilə üst-üstə düşərsə, şübhəsiz ki, işlər daha rasional xarakter daşıyar.

Eyni zamanda, məlumatda dünyada insan alverinə qarşı mübarizənin tendensiyaları göstərilir. Ötən ilin məruzəsində qeyd edilmişdi ki, Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin məruzələrində ikinci qrupda yer almışıq. Bu, çox mühüm nailiyyətdir və burada geriləmə yoxdur, irəliləyiş var. İnkişaf dinamikası məruzədən də, kütləvi informasiya vasitələrinin məlumatından da açıq-aşkar görünür. Şəffaflıq elementi həm də insan alverinə qarşı mübarizənin səmərəliliyini göstərir. Eyni zamanda, GRETA-da İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyasının icrasının üçüncü qiymətləndirmə mərhələsi üzrə hesabatlarında ölkəmizin qanuvericilik, cinayət təqibi, qurbanların müdafiə edilməsi, sığınacaqların maliyyələşdirilməsi və əməkdaşlıqla bağlı fəaliyyəti təqdir olunmuşdur. Hörmətli Seyfulla müəllim bu vacib məsələni qeyd etdi. Lakin bu uğuru təkrarlamağı özümə borc bildim.

Məlumatda mühüm məqamlardan biri insan alveri qurbanlarının respublikanın şəhər və rayonları üzrə bölgüsündə sərhəd rayonlarımızda belə qurbanların olmamasıdır. Bu, çox müsbət haldır və bu, birmənalı şəkildə həm də aparılan maarifçilik işlərinin səmərəliliyindən xəbər verir. Orta məktəblərdə və kolleclərdə çoxsaylı maarifçilik tədbirlərinin, açıq dərslərin, dəyirmi masaların keçirilməsi xüsusi ilə böyük əhəmiyyət kəsb edir. Təhsil müəssisələrində dərslərə davamiyyətin yüksəldilməsi, şübhəsiz ki, problemlərin aradan qaldırılmasının əsas göstəricilərindən biridir.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin vətəndaş müraciətləri əsasında apardığı yoxlamalar zamanı 512 şəxsin əmək müqaviləsi olmadan işləməsi faktı aşkarlanaraq işə götürənlərin, ümumilikdə, 2 milyon 374 min 400 manat

məbləğində cərimələnməsi, – səhifə 20-də yazılıb, – mühüm fəaliyyət kimi qeyd olunmalıdır. Bu istiqamət ötən illərdəki məruzələrdə qaldırdığımız əsas məsələlərdən biri idi. Bütün bunlarla yanaşı, insan alveri və qanunsuz miqrasiya ilə bağlı uğur hekayələri də mövcuddur. Məsələn, məlumat ili ərəfəsində Asiya ölkələrinin vətəndaşı olan, ümumilikdə, 12 nəfərin saxlanılması faktını deyə bilərəm. Həmin əcnəbilərin öz həmvətənləri tərəfindən pul müqabilində guya ölkəmizdən tranzit kimi istifadə olunmaqla qeyri-leqal yollarla Avropa ölkələrinə keçidin təmin ediləcəyi vədi ilə dələduzluğa məruz qalmaqları müəyyən edilib. Qanunsuz miqrasiya insan alverinə yol açan əsas amillərdən biridir. Əlbəttə ki, bütün bunlar sosial şəbəkələr üzərindən edilib və böyük uğur sayılmalıdır. Bütün bunları nəzərə alaraq, məlumatın lehinə səs verəcəyəm.

Sahibə xanım, söz verdiyinizə görə bir daha təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Etibar müəllim. Hörmətli həmkarlar, mən ancaq təkid edənlərə söz verəcəyəm. Xahiş edirəm, qalan hamınız adınızı siyahıdan çıxarın. Siyavuş Novruzov, sonra Musa Qasımlı, daha sonra Razi Nurullayev. Siyavuş müəllim, buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli qonaqlar, hörmətli millət vəkilləri. Sahibə xanım, mən də həmkarlarımın dediyi fikirlərə qoşuluram. Beynəlxalq tədbirlərdə və burada keçirilən tədbirlərin bir neçəsində mən də iştirak etmişəm və Sizin tərəfinizdən Azərbaycan maraqlarının necə müdafiə olunduğunun şahidi olmuşam.

Başqa bir məsələ ilə əlaqədar fikrimi söyləmək istəyirəm. Ümumiyyətlə, həmişə deputatların qaldırdığı

məsələlərə çox diqqətlə yanaşırsınız. O cümlədən VI çağırış parlamentdə müxtəlif yeniliklər olubdur. Onlardan biri də yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqidir. Dəfələrcə burada deputatlar məsələ qaldırıb və nəticə etibarı ilə bu gün Milli Məclisdə hər bir deputat yeni kompüterlə təmin olunubdur. Buna görə də bütün deputatlar adından Sizə öz təşəkkürümüzü bildiririk. Minnətdarıq, bizi yeni texniki vasitələrlə təmin edirsiniz ki, biz öz işimizi yüksək səviyyədə qura bilək.

Müzakirə olunan məsələ ilə əlaqədar qeyd etmək istərdim ki, hörmətli Seyfulla müəllim ətraflı məlumat verdi, məlumat qabaqcadan da bizə paylanıb. Zahid müəllimin də, Əli müəllimin də məruzələrini dinlədik və mən onlarla razıyam. Bu gün daxili işlər orqanları hörmətli Vilayət müəllimin rəhbərliyi altında çox böyük işlər görür. Qarşıdan COP29 gəlir. Bilirik ki, onların üzərilərinə böyük vəzifələr düşür. O baxımdan da çalışaq, onlara bu sahədə də dəstək verək. Bu tədbirdə təhlükəsizliyin təminatı digər hüquq mühafizə orqanları ilə yanaşı, onların da üzərində olacaqdır.

Müzakirə edilən məsələ ilə bağlı nəyə toxunmaq istəyirəm? İnsan alverinin mənbəyi məsələsinə. İnsan alverinin mənbəyini yaradan şərait, əsasən, yoxsulluq, iqtisadi çətinlik və müharibələrdir. Biz bunun şahidi olmuşuq, görürük və dünyada baş verən bu proseslərin hamısının şahidiyik. Vaxtı ilə Qarabağ işğal altında olanda insan alverinin bir mənbəyi idi. Bu gün o mənbə ləğv olundu, Azərbaycan ərazi bütövlüyünü təmin etdi. Hazırda orada tikinti-quruculuq işləri aparılır. O baxımdan da dünyadakı müharibələr, Rusiya–Ukrayna müharibəsi və "Ərəb baharı" nəticəsində baş verən hadisələrlə bağlı insan alverinin sayının artması istər-istəməz dolayı şəkildə

Azərbaycana da təsir göstərir. Bizim hüquq mühafizə orqanları da burada çox mühüm işlər görürlər, mühüm addımlar atırlar.

Azərbaycanda digər ölkələrdən fərqli olaraq insan alverinin xüsusi bir forması da var. Mən hesab edirəm ki, buna qarşı da ciddi mübarizə aparmalıyıq. Bu, siyasi alverdir. Siyasi alverin mənbəyi nədən ibarətdir? Bu və ya digər cinayət törətmiş şəxslərin adlarını siyahıya salıb siyasi məhbus kimi təqdim etmək və istər Milli Şura rəhbərliyinin, istərsə də xaricdəki bəzi blogerlərin, o cümlədən hüquq müdafiə təşkilatlarının onlardan aldığı pullar vasitəsi ilə gəlir əldə etməsidir.

Bunların ikinci gəlir mənbəyi, – mən hesab edirəm, buna qarşı da mübarizə aparılmalıdır, – heç bir siyasi fəaliyyətlə məşğul olmayan şəxslərə arayış satmaqla onların guya siyasi baxışlarına görə sıxışdırılması və heç bir partiyanın üzvü olmadan bu adamların xaricə getmək üçün viza almasına kömək göstərilməsidir. Bu da siyasi alverin bir mənbəyidir. Mən hesab edirəm, bununla məşğul olanlara qarşı da daxili işlər orqanları, aidiyyəti strukturlar ciddi mübarizə aparmalıdırlar. Gəlib Fəvvarələr meydanında camaatın gəzdiyi yerdə şəkil çəkdirir, sonradan aparıb o şəkli sayta qoyur ki, guya bu, mitinq təşkil edirdi və onu həbs ediblər, guya buna işgəncə veriblər və ona icazə verin, xaricdə sığınacaq alsın. Oraya çatan kimi də söyüşlər, böhtanlar, yalanlar... Maşın alverçiləri, ali təhsili olmayanlar, oğrular, hamısı yığışıblar orada bu cür fəaliyyətlə məşğuldurlar. Hesab edirəm ki, – burada hörmətli Seyfulla müəllim ekstradisiya ilə bağlı dedi, – o adamların da ekstradisiyası ilə ciddi məşğul olmaq lazımdır.

Ümumilikdə, məruzə çox yüksək səviyyədə hazırlanıbdır. Mən səs verəcəyəm, həmkarlarımı da səs verməyə

dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Hörmətli həmkarlar, mən yenə təkrar edirəm, Musa Qasımlıdan sonra məsələni səsə qoyacağam. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Təşəkkür edirəm, xanım sədr. Xanım sədr, təkid etməyimin səbəbi deyəcəyim məsələ ilə bağlı mənə çoxlu müraciətlərin daxil olmasıdır. Təşəkkür edirəm Sizə.

Diqqəti şirnikləndirici iş və biznes elanlarına çəkmək istəyirəm. Sosial şəbəkələrdə, elan qəzetlərində və saytlarda şirnikləndirici iş elanları verilir. Bəzən elə əmək haqları təklif olunur ki, bundan xeyli insanın başı hərlənir. Ofisə dəvət olunan qurbanlara o qədər yağlı vədlər verilir ki, həmin adam düşünür, bir neçə aya yaxşı qazananlar və yaşayanlar qrupuna daxil olacaq. Elələri olur ki, xəyalındakı qazancdan başı fırlanır, gedib kredit götürür. Bu cür elanlar mütləq şəkildə araşdırılmalı və barələrində qanuni tədbirlər görülməlidir.

Bu qəbildən olan digər məsələ şəbəkə biznesləridir. Düzdür, şəbəkə biznesinə qarşı ciddi tədbirlər görülüb. Amma bunlar internet üzərindən yenə həyata keçirilir və yeni-yeni qurbanlar yaranır. Bu sahədə kütləvi maarifləndirmə tədbirlərinə də ehtiyac yaranıb. Bilmək istəyərdim ki, dediyim problemlər üzrə vəziyyət hansı səviyyədədir və belə hallara qarşı hansı tədbirlər görülüb və görülür?

İkinci vacib saydığım məsələ onlayn oyunlarının qurbanlarına aiddir. İnternet üzərindən müxtəlif oyunlar təklif olunur və vətəndaşlarımız ciddi şəkildə qurbanlığa çevrilir. Bəzi işbazlar internet üzərindən oyun platformaları satır və onu yerli adamlar alaraq şəbəkə biznesi

yaradırlar. Ya bacarıqsızlıq, ya da elə dələduzluq yolu ilə yüzlərcə vətəndaşı tora salaraq həyatlarını puç edirlər. Sonra qurbanların və platfomanı işlədənlərin valideynləri gəlib bizim qapımızı döyürlər ki, "kömək edin, uşağım günahsızdır". Nə təklif etmək istəyirəm?

Hər kəs müxtəlif yollarla pul qazanmaq istəyir. Biz bunun qarşısını ala bilmərik. Bu işlərin çoxu da internet üzərindən görülür. İnsanların azad bazar düşüncəsini, sərbəst biznes qurmaq və işləmək təşəbbüslərini də boğmaq olmaz. Onun üçün gərək internet üzərindən oyun biznesi sahəsində monopoliya sisteminə son qoyulsun və hər kəsə qanunvericilik səviyyəsində bərabər iş görmək imkanları yaradılsın. Dövlət tərəfindən nəzarət olunsun ki, heç kim gizli yollarla iş görmək istəməsin. Təbii ki, mən o dələduzlara haqq qazandırmaq istəməzdim və istəmirəm. İstəyərəm ki, xaricdən bizim hələ əxz etmədiyimiz biznes təşəbbüsü varsa, təcili surətdə onun alt yapısı hazırlansın və nəzarəti də dövlət həyata keçirsin. Həm büdcəyə vergi vəsaiti daxil olsun, həm də vətəndaşların azad və sərbəst biznes düşüncələri boğulmasın.

Hörmətli xanım sədr, mən bir neçə dəfə burada Dövlət Reklam Agentliyi ilə bağlı məsələ qaldırmışdım. Sadəcə, bunu misal kimi çəkmək istəyirəm. Müxtəlif insanlar müraciət etmişdi və onları burada səsləndirdim. Onlar xaricdə gördükləri müxtəlif reklam məhsullarını Azərbaycanda tətbiq etmək istəyirdilər və innovasiyalı bir məsələ idi. Amma Dövlət Reklam Agentliyinin keçmiş rəhbərliyi bilmirəm özünün  hansı maraqlarından istifadə edərək onlara qarşı çox ciddi problem yaradırdı. Yaxşı ki, o, işdən çıxarıldı. Mən ona qarşı mübarizə apardım və çox yaxşı da oldu ki, o, artıq vəzifədən azad edildi.

Mən bu misalı ona görə çəkdim ki, doğrudan da, əgər

hər hansı bir iş, hər hansı bir təşəbbüs varsa və biz bunu bilmiriksə, o, xaricdən bura gəlibsə, yeni ideyadırsa, innovasiyadırsa, onun alt yapısı hazırlanır və dövlət ona, sadəcə, imkan yaradır, nəzarət edir. Oradan gələn vergilər də büdcəyə daxil olur və heç kim də gizli şəkildə heç nə etmək istəmir. Mən bu qəbildən olan məsələni mənə olan müraciətlərə görə qaldırdım və ümid edirəm ki, bununla bağlı hər hansı bir məsələ varsa da, bu məsələ ilə bağlı məlumat verilər.

Mən, ümumilikdə, Milli Koordinatorun hesabatını qəbul edirəm, müsbət yanaşıram, bəyənirəm, səs verəcəyəm. Seyfulla müəllimə də bu məlumatına görə təşəkkür edirəm. Çox sağ olun, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun. Sonuncu çıxış, Musa Qasımlı. Buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Seyfulla müəllim Əzimovun təqdim etdiyi hesabat mükəmməl hazırlanıb. Ən başlıcası ondan ibarətdir ki, 2023-cü ildə insan alveri sahəsində kriminogen vəziyyət Daxili İşlər Nazirliyimizin tam nəzarətində saxlanılıb. İnsan alveri məsələsi tək Azərbaycana aid deyil, bütün dünya ölkələrində var. Amma Azərbaycanda bu işə çox ciddi yanaşılır və konkret proqram da mövcuddur.

Bir neçə məsələ barəsində öz mülahizələrimi söyləmək istəyirəm. Bilirsiniz ki, nazirlik təkcə ölkəmizin daxilində müxtəlif müəssisələrdə deyil, eyni zamanda, səfirliklərimizdə də belə tədbirlər keçirir. Bu o deməkdir ki, Azərbaycan dövləti xarici ölkələrdə olan bütün Azərbaycan vətəndaşlarının taleyini də düşünür. Bu, həm də bizim dövlətimizin qüdrətinin göstəricilərindən biridir.

Toxunacağım ikinci məsələ. Hesabatda yazılır ki, valideyn nəzarətindən və məktəb təhsilindən uzaq qalan

132 uşağa Daxili İşlər Nazirliyi tərəfindən yardım göstərilib. Ortaya sual çıxır – 132 məktəbli konkret hər hansı bir məktəbdə təhsil alır. Bu uşaqların valideynləri var və ya kiminsə himayəsindədirlər. Bəs onlar hara baxırlar? Həmin məktəblərin də, valideyn və ya valideynlərin də işini Daxili İşlər Nazirliyi görməlidir? Daxili İşlər Nazirliyi bu yükü öz üzərinə götürməlidir? Bu bizim məktəb təhsili sahəsində çoxlu problemlərin olduğunu üzə çıxarır.

Növbəti məsələ insanların əmək müqaviləsi olmadan işlədilməsidir. Hörmətli Sahibə xanım, əmək müqaviləsi olmadan insanların işlədilməsi sonradan həmin şəxslərin pensiya məsələsində, sosial təminatında bir çox problemlər ortaya çıxarır və bunun da yükü yenə dövlətin üzərinə düşür. Ona görə hesab edirəm ki, şirkətlər, müvafiq qurumlar bu sahədə ciddi qayda-qanun yaratmalıdırlar.

Söyləyəcəyim başqa bir məsələ informasiya texnologiyaları ilə törədilən cinayətlərdir. Çox yaxşıdır ki, Daxili İşlər Nazirliyimizin sistemində belə bir qurum yaradılıb. Amma bu sahələrdə yenilənmə daim vacibdir. Bu məsələlər təkcə Daxili İşlər Nazirliyinin gücü ilə həll olunmaz. Qeyri-hökumət təşkilatları və cəmiyyət Daxili İşlər Nazirliyinə kömək etməlidir.

Nəhayət, bu hesabatda ən yaxşı hal odur ki, qarşıdakı planlardan söhbət açılır. Bu, onu göstərir ki, Daxili İşlər Nazirliyimizin bu sahədə qarşıdakı illərdə görəcəyi aydın və konkret planlar var.

Hesabatın lehinə səs verəcəyəm. Hörmətli cənab nazir Vilayət müəllim Eyvazov başda olmaqla Daxili İşlər Nazirliyinə fəaliyyətində uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, səsə qoyacağıq. Seyfulla müəllim, sözünüz varsa, buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox hörmətli İsa müəllim, xahiş edirəm, çıxışınızı yazılı surətdə verərsiniz.

**S.Əzimov.** Hörmətli xanım sədr, Siz başda olmaqla bütün millət vəkillərinə təşəkkürümü bildirirəm. Mühüm dövlət siyasətinin həyata keçirilməsində və hesabatın qəbul olunmasında dəstəyinizə görə bir daha təşəkkür edirəm. Çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, məlumatı səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---:|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, məlumat qəbul edildi.

Seyfulla müəllim, Sizə təşəkkür edirik və gələcək işlərinizdə uğurlar arzulayırıq. Çox sağ olun.

Hörmətli həmkarlar, gündəliyin növbəti 3 məsələsi beynəlxalq sazişlərin təsdiq edilməsi ilə bağlıdır. Bildiyiniz kimi, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul edilməlidir. Onu da qeyd edim ki, 2-ci və 3-cü məsələlər möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə

daxil olmuşdur. Biz indi gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 3 aprel tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Bəxtiyar Əliyevə söz verirəm. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Bildiyiniz kimi, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana rəsmi səfəri zamanı 2024-cü il martın 11-də Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi arasında "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 3 aprel tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol" imzalanıb. Saziş imzalanandan sonrakı müddət ərzində elm və təhsil sahəsində qarşılıqlı əlaqələr daha da genişlənmiş, eyni zamanda, elm və təhsil sahələrində islahatlar çərçivəsində hər iki ölkənin müvafiq nazirliyinin adı dəyişilmişdir. Bütün bunlar sazişə dəyişikliklər edilməsi barədə protokolun hazırlanmasını və imzalanmasını zəruri etmişdir.

İmzalanmış protokolda tərəflərə bütün mətn boyu müvafiq nazirliyin adı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi kimi verilir. Həmçinin "təhsil sahəsində

əməkdaşlıq" sözləri "elm və təhsil sahəsində əməkdaşlıq" sözləri ilə əvəz edilmişdir. Yəni əgər sazişdə yalnız təhsil sahəsində əməkdaşlıq nəzərdə tutulurdusa, bundan sonra həm də elm sahəsində əməkdaşlıq həyata keçiriləcək və bununla da tərəflərin dövlətlərinin maraqlı elm və ali təhsil müəssisələri arasında müqavilələr əsasında tələbələrin, professor, müəllim heyəti nümayəndələrinin və elmi işçilərinin mübadiləsi də təşkil ediləcəkdir.

Protokolda sazişin 3-cü maddəsi tamamilə yeni redaksiyada verilir. Yeni redaksiyada bakalavriat və magistratura proqramları ilə yanaşı, həm də doktorantura və əsas baza ali tibb təhsili və rezidentura proqramları üzrə də kadr hazırlığı nəzərdə tutulur. Hansı ixtisaslar üzrə kadr hazırlığının həyata keçiriləcəyi protokolda öz əksini tapmışdır.

Vaxtınızı almadan qeyd etmək istərdim ki, Qazaxıstan tərəfi informasiya və kommunikasiya texnologiyaları, mühəndislik, emal və tikinti sənayesi üzrə 5 nəfərin, kənd təsərrüfatı və resurslar, incəsənət və humanitar elmlər, sosial elmlər, jurnalistika, informasiya, biznes idarəetmə və hüquq üzrə 5 nəfərin, səhiyyə və sosial təminat, tibb ixtisasları üzrə 2 nəfərin təhsilini təşkil edir.

Məlumat üçün bildirim ki, sazişə uyğun olaraq, artıq 1 nəfər Azərbaycan Respublikası vətəndaşı 2022–2023-cü tədris ilində Qazaxıstanın nüfuzlu ali təhsil müəssisələrindən hesab edilən Əl-Fərabi Qazax Milli Universitetində magistratura səviyyəsində logistika sahəsi üzrə təhsil alır. Həmçinin bu il 2023–2024-cü tədris ili üzrə də Qazaxıstan Elm və Ali Təhsil Nazirliyi Azərbaycan vətəndaşları üçün təqaüd proqramlı üzrə 5 yer elan etmişdir.

Hesab edirik ki, Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında ikitərəfli münasibətlər daha da genişlənir. Bu, eyni zamanda, Türk Dövlətləri Təşkilatın-

da elm və təhsil sahəsində qarşılıqlı əlaqələrin daha da dərinləşməsinə xidmət edən bir qanun layihəsidir. Ona görə də deputat həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Mən indi sözü hörmətli Səməd Seyidova verirəm. Üzr istəyirəm, Sahib Alıyevə. Sahib müəllim, bu məsələ ilə bağlı bu gün Siz məlumat verəcəksiniz. Buyurun.

**S.Alıyev,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Hörmətli xanım sədr, dəyərli həmkarlar. Öncə onu deyim ki, qardaş Qazaxıstanla əlaqələri bütün sahələrdə, o cümlədən də elm və təhsil sahəsində daha da dərinləşdirməliyik və yəqin ki, dərinləşdirəcəyik. Çünki söhbət Mərkəzi Asiyada insan kapitalına böyük önəm verməsi ilə diqqətçəkən və cənab Prezidentin təbirincə desək, bizimlə eyni ailənin, yəni türk dünyasının üzvü olan bir dövlətdən gedir. Həm də elə bir dövlətdən ki, təkcə ikitərəfli deyil, çoxtərəfli formatlarda da, hətta KTMT kimi Azərbaycanın üzv olmadığı qurumlarda da potensialının imkan verdiyi çərçivədə dövlətimizə dəstəyini əsirgəməyib.

Eyni zamanda, Azərbaycan da bütün riskləri öz üzərinə götürərək transmilli şirkətləri Xəzər regionuna gətirib onun karbohidrogen ehtiyatlarının dünyaya çatdırılmasının alternativ marşrutlarını yaratmaqla və atdığı digər addımlarla Mərkəzi Asiyadakı qardaş dövlətlərin, o sıradan da Qazaxıstanın müstəqillik potensialının artmasında mühüm rol oynayıb.

Plenar iclasın gündəliyinə çıxarılan bu məsələyə gəldikdə, Elm və təhsil komitəsinin sədri hör-

mətli Bəxtiyar Əliyev o haqda ətraflı məlumat verdi. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi olaraq bu qanun layihəsini dəstəkləmək təklifini biz də yekdilliklə bölüşürük. Ümidvaram ki, digər həmkarlarımız da eyni mövqe sərgiləyəcəklər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sahib müəllim. Sabir müəllim çıxış etmək istəyir. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı.** Təşəkkür edirəm, hörmətli sədr. Mən çıxışımın əvvəlində onu deyim ki, son vaxtlar biz həm Azərbaycan Respublikası Prezidentinin, həm də Sizin iş rejiminizi diqqətlə izləyirik. Keçirilən görüşlər, gələn qonaqlarla aparılan söhbətlər – bütün bunlar Azərbaycan diplomatiyasının, Azərbaycan dövlətinin apardığı siyasətin hansı səviyyədə olduğunu və nə dərəcədə gərgin və səmərəli, xeyirli olduğunu deməyə əsas verir. Buna görə Sizə təşəkkürümüzü bildiririk. Güman edirəm, bizim bu barədə fikirlərimizi, təşəkkürümüzü Siz həm də Azərbaycan Respublikasının Prezidentinə çatdıra bilərsiniz. Hər şey göz qabağındadır. Bunu xırdalamağa, məncə, ehtiyac yoxdur.

O ki qaldı bu gün təqdim olunan müqaviləyə, biz bunu komitənin iclasında müzakirə etmişik və bəyənmişik. Mən, sadəcə, bir təklif vermək istəyirəm. Bu, son dərəcə əhəmiyyətli bir məsələdir. Bu günlərdə Özbəkistanda çox ciddi bir forum olmuşdu. Orada özbək həmkarlarımızın və dostlarımızın, elm və təhsil sahəsində çalışan tanışlarımızın bu barədə təkliflərini mən nəzərə alıb demək istəyirəm ki, əslində, buna bənzər saziş təkcə Qazaxıstan Respublikası ilə deyil, Türk Dövlətləri Təşkilatına daxil olan bütün respublikalarla, o respublikalarda təhsil və elm nazirlikləri ilə bağlanmalıdır.

Biz bu gün türk dünyasının inteqrasiyasından söhbət ediriksə, bu dövlətlərin yaxınlaşmasını, Avrasiyada bizim dövlətlərin mövqelərinin güclənməsini istəyiriksə, hökmən ciddi şəkildə həm təhsilin, həm də elmin müxtəlif sahəsi üzrə tələbə mübadiləsi və kadrların yetişdirilməsi prosesi getməlidir.

Bilirsiniz, Beynəlxalq Türk Akademiyası Qazaxıstanda yerləşir. Orada Azərbaycandan gedən elmi işçilər də var, yəqin ki, yenə də olmalıdır. Vaxtı ikən həmişə belə olub, Azərbaycan xüsusən neft və kimya sahəsi üzrə dünya üçün bir ali məktəb rolu oynayıb. Burada çox mütəxəssislər yetişib.

Təkcə tələbələrə yataqxananın verilməsi məsələsinə baxıla bilər, bu barədə imkanlar araşdırılacaq. Məncə, o, konkret yazılmalıdır. Türk respublikalarında tələbə mübadiləsi genişləndirilməlidir, onların bu respublikalarda oxuması, qalması üçün gələcəkdə uyğun yataqxanalar tikilməlidir və yaxud yataqxanalar olmalıdır. Bunu Allahın ümidinə buraxmaq olmaz.

Bir sözlə, bu, son dərəcə əhəmiyyətli bir müqavilədir. Azərbaycanın və Qazaxıstanın – bizim dövlətlərimizin gələcəyinə yönəlmiş perspektivi böyük olan, son dərəcə geniş yol açan bir işdir. Bu iş getdikcə genişləndirilməlidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sabir müəllim. Hörmətli həmkarlar, mən layihəni səs qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 3-cü məsələsi "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyət üzvlərinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında imzalanan bu saziş dəniz gəmilərinin heyət üzvlərinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqındadır. Hörmətli Bəxtiyar müəllimin də qeyd etdiyi kimi, bu saziş Qazaxıstan Prezidentinin Azərbaycana rəsmi səfəri çərçivəsində 2024-cü il martın 11-də Bakı şəhərində imzalanmışdır.

Sazişin adından da göründüyü kimi, əsas məqsəd bu sazişin predmeti olan dəniz gəmilərinin heyət üzvlərinin ixtisas diplomlarının ikitərəfli qaydada tanınmasıdır. İki ölkə arasında diplomların tanınması üçün əsas şərtlərdən biri dənizçilərin hazırlanması, onlara diplom verilməsi və növbə çəkməyə dair beynəlxalq konvensiyanın müddəalarına tam əməl edilməsidir.

Qeyd edim ki, Azərbaycan hazırda Xəzərdə ən böyük ticarət donanmasına sahib olan ölkədir. Bu sazişin imzalanması Xəzərdə hərəkətliyin daha da artmasına, eyni zamanda, tranzit əlaqələri zamanı qarşılaşa biləcəyimiz bürokratiyanın aradan qaldırılmasına xidmət edir.

Komitənin rəyi müsbətdir, həmkarlarımdan səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu layihəyə də Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılıb. Mən yenə də sözü hörmətli Sahib Alıyevə verirəm. Sahib müəllim, buyurun, bu məsələ ilə də bağlı məlumat verin, rəyi bildirin.

**S.Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Azərbaycanla Qazaxıstan arasında təkcə nəqliyyat deyil, həm də təhsil ağırlıqlı bu anlaşmanın mahiyyəti hörmətli Tahir Mirkişilinin təqdimatında tam çatdırıldığından mən, sadəcə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin mövqeyini açıqlayacağam. Mövqe, bütövlükdə, müsbətdir. Nəzərə almağınızı xahiş edirəm. Diqqətinizə və verəcəyiniz dəstəyə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sahib müəllim. Hörmətli həmkarlar, söz demək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 4-cü məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan–Rusiya dövlət sərhədindən "Samur" (Azərbaycan Respublikası) – "Yaraq–Qazmalar" (Rusiya Federasiyası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün və giriş yollarının istismarı və onlara xidmət göstərilməsi qaydaları haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Tahir müəllim, sizin komitənizdə baxılıb. Yenə də Sizə söz verirəm. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bu vacib saziş Azərbaycan–Rusiya dövlət sərhədindən "Samur" və "Yaraq–Qazmalar" buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün və giriş yollarının istismarı və onlara xidmət göstərilməsi məqsədi ilə 2024-cü il martın 5-də Bakı şəhərində imzalanmışdır.

Qeyd edim ki, sazişin müddəalarına əsasən tərəflər avtomobil körpüsünün istismarını öz qanunvericiliklərinə uyğun olaraq, 12 il müddətinə növbə ilə həyata keçirəcəklər. İstismar dedikdə, nəqliyyat vasitələrinin, sərnişinlərin və piyadaların fasiləsiz və təhlükəsiz hərəkətini təmin etmək məqsədi ilə avtomobil körpüsünün təmiri və saxlanılması üzrə tədbirlər kompleksi nəzərdə tutulur. Avtomobil körpüsünün istismarı ilə bağlı bütün xərcləri tərəflər bərabər paylarla ödəyəcəklər.

Eyni zamanda, qeyd etmək lazımdır ki, avtomobil körpüsünün istismarı Samur çayının su axınının istiqamətlərini dəyişdirməməli, onun məcrasında, sahil zolağında və Azərbaycan–Rusiya dövlət sərhəd xəttində dəyişiklik etməməli, həmçinin bu ərazidə ekoloji və digər

təhlükəsizliyə ziyan vurmamalıdır.

Bundan əlavə, sazişə əsasən hər bir tərəf öz dövlətinin ərazisində avtomobil körpüsünə giriş yollarının istismarını və onlara xidmət göstərilməsi üçün işlərin aparılmasını müstəqil olaraq həyata keçirəcəkdir.

Proses çərçivəsində vergitutma məsələləri tərəflər arasında 1997-ci ildə imzalanmış qarşılıqlı ikiqat vergidən azadolma məsələləri ilə tənzimlənəcəkdir.

Qeyd edim ki, saziş qeyri-müəyyən müddətə bağlanılır. Sazişə ediləcək hər hansı bir dəyişiklik və əlavələr qarşılıqlı razılaşma əsasında əlavə protokollar şəklində əlavə olunacaqdır.

Komitənin rəyi müsbətdir, həmkarlarımdan layihəyə səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu layihəyə də Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Bu dəfə Səməd müəllim, özünüz məlumat verəcəksiniz. Buyurun. Səməd Seyidov.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Tahir müəllim qeyd etdi, doğrudan da, həddindən artıq vacib və əhəmiyyətli bir sazişdir. Bu saziş göstərir ki, Azərbaycan öz qonşuları ilə bütün sahələrdə əlaqələri necə yüksək səviyyədə qurmaq iqtidarındadır. Bizim şimal qonşumuzla da əlaqələrin nümunəvi şəkildə təşkil olunması və bu saziş əsasında həm Rusiya Federasiyasına, həm də Azərbaycan Respublikasına nə dərəcədə xeyir gətirməsi göz qabağındadır. Təsadüfi deyil ki, burada ikiqat verginin aradan qaldırılması, birgə fəaliyyətin təşkil olunması, qarşılıqlı anlaşma məsələləri, hamısı sazişdə öz əksini tapmışdır. Bu, bir də Azərbaycanın regionda apardığı beynəlxalq münasibətlər

çərçivəsində ölkələrlə nümunəvi əlaqələrin qurulmasına birbaşa dəlalət edir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi qanun layihəsinin tam lehinədir və mən də həmkarlardan öz müsbət rəylərini bildirmələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Çıxış etmək istəyənlər var. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Həm Tahir müəllim, həm də hörmətli Səməd müəllim layihə ilə bağlı ətraflı məlumat verdilər. Mən də qeyd etmək istəyirəm ki, bu, çox vacib bir layihədir. Bu gün Azərbaycanın iqtisadi əlaqələrinə xidmət göstərən bir layihədir. Hesab edirəm ki, bu cür yolların və körpülərin sayı artırılmalıdır. Çünki Azərbaycan indi Orta Dəhlizin məsuliyyətini tam şəkildə öz üzərinə götürüb. Azərbaycan Şərqlə Qərbi birləşdirən bir missiyanı həyata keçirir. O cümlədən qədim İpək Yolunun bərpası ilə əlaqədar addımlar atır. Ona görə də ölkəyə gələn və çıxan yolların sayının çoxalması bu gün vacib və zəruri məsələdir. Mən hesab edirəm, tək Rusiya ilə deyil, bu, gələcəkdə Gürcüstanla da bağlı olmalıdır ki, Gürcüstanla bizim sərhəd olan bölgələrimizdən həm Qazaxdan, həm də Zaqataladan bu yollar açılsın. Çünki orada yaşayan əhalinin buna ehtiyacı var. Götürək, misal üçün, “Qırmızı Körpü”dən keçənlər, azərbaycanlılar digər tərəfə gəlmək üçün 70 kilometr fırlanır, Zaqatala tərəfdən öz kəndlərinə gəlirlər. Əgər Zaqataladan daxil olsalar, öz kəndlərinə 15 kilometr yolla çatacaqlar. Yəni bunlar nəzərə alınmalıdır.

Bu gün Dövlət Gömrük Komitəsində yeni rəhbərlik çalışır. Hesab edirəm, cənab Prezidentin tapşırığı ilə bu yolların açılması və gələcəkdə Zəngəzur dəhlizinin fəaliy-

yətə başlaması ilə bu yollar bilavasitə birləşdirici rolunu oynayacaqdır. Ona görə də indi imkan var, məqamdır ki, o yollar tam təmir olunana, Zəngəzur dəhlizi açılana qədər digər yolları, körpüləri, sərhəd keçid məntəqələrini də biz qaydaya salaq.

Həmçinin Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsulları daşınır. Bizə şikayətlər daxil olur, eşidirik ki, orada gömrük postlarında qalırlar, gözləyirlər, məhsullar xarab olmaq dərəcəsinə gəlib çatır. Həmçinin Türkiyədən gələn məhsullar var ki həmin ərazidən keçib birbaşa Rusiyaya gedir. O baxımdan mən hesab edirəm ki, yolların genişləndirilməsi vacibdir.

Qanun layihəsinə səs verəcəyəm, həmkarlarımı da buna səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar. Mən bu sənədi müdafiə edərkən iki-üç xüsusi məqamı vurğulamaq istəyirəm. Birinci, Rusiya ilə olan saziş buna qədərki on illər ərzində bu dövlətlə olan düzgün siyasətin bilavasitə nəticəsidir. Mən xatırlatmaq istəyirəm ki, parlament həyatında biz elə həmin Samur çayı üzərində suyun bölgüsünə dair məsələni də, həmçinin Xaçmazın Xraxoba və Üryanoba kəndləri barədə razılaşmanı da həyata keçirərək ilk dəfə məhz Rusiya ilə bütün sərhədlərin delimitasiya və demarkasiyasını razılaşdıra bilmişdik və bu, sonrakı dövrdə də münasibətlərdə önəmli rol oynamışdı.

İkinci, həqiqətən, hamı bilir ki, dünyada savaşlar, müharibələr təkcə iqtisadi sərvətlər, resurslar uğrunda deyil, daha çox yollar, strateji qovşaqlar, kəmərlər, xətlər üçün aparılır. Ona görə də Azərbaycan, gerçəkdən də, dünyaya açılır və biz bunu təqdir edirik. Bu layihə Samur

və Yaraq–Qazmalar buraxılış məntəqələri arasında çay üzərindəki körpünün istismarı ilə bağlıdır. Mən düşünürəm ki, ölkəmizə səfər edən bütün xarici dövlət rəhbərləri ilə cənab Prezidentin keçirdiyi görüşlərin, apardığı danışıqların, razılaşmaların hamısı məhz dediyimiz kimi, ölkəmizin dünya

üçün bu cür tranzit bir məkana çevrilməsinə xidmət edir. Dəniz də, çay da, quru yollar da, hava məkanı da, hamısı bir ölkə üçün resursdur, sərvətdir.

Hörmətli Əli müəllim, doğrusu, mən çıxışa həm də ona görə yazıldım, – iki dəqiqə yarım icazə verərsinizsə, – bu günlərdə Belarus Prezidenti hörmətli Lukaşenkonun səfəri ilə bağlı müəyyən reaksiyalar olmuşdu, onu qısa olaraq Sizinlə bölüşüm. Çünki cari məsələ olmadığından bunu məhz indi etmək istəyirəm. Deputatlardan da üzr istəyirəm.

Belarusda prezidentliyə keçmiş namizəd, dörd ildir Qərb paytaxtlarında komfort ömür sürən Svetlana Tixanovskaya mayın 16-da Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfərini şərh edərkən "X" səhifəsində yazır. Sitat "Qəribədir, Belarus diktatoru Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında rəsmi müttəfiqi Ermənistana növbəti dəfə zərbə vuraraq Qarabağ mövzusunda Azərbaycana yardım üçün ora səfər edib".

Bəli, evdar xanımı Avropa Parlamentinə, Avropa Şurasına, Amerika və onlarca dövlət başçısına "parlaq demokrat", avtoritarizmin alternativi kimi təqdim edənlər siyasi laboratoriyalarında bəslədikləri tixanovskayalarla eyni dildə danışırlar. Beləəri hakimiyyətə gəlsə idi, Belarusun siyasətini dəyişib ölkəmizi işğalla barışmağa çağıranlardan biri olacaqdı. Halbuki tanımadıqları Lukaşenko son 20 ildə bütün platformalarda ölkəmizə

prinsipial hərbi-siyasi dəstək verib. İndi kimdir demokrat?

907-ci maddənin müəllifləri bizə silah satmayanda Belarus dövləti İrəvanda qorxu yaradan uzaqmənzilli "Polonez" raketlərini ordumuzun sərəncamına vermişdi. O, keçmiş erməni rəhbərlərinə hər zaman işğalla bağlı açıq etirazını bildirib. Mühüm məxfi danışıqlarda az qala ölkəmizin elçisi, Vətən müharibəsində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının neytrallığını təmin edənlərdən biri olub. Ona görə də erməni rəhbərləri və millətçi qüvvələr həmişə Belarus liderinə qəzəb və hiddətlə baxıblar.

Prezident İlham Əliyevin dövlət protokolunun ayrılmaz hissəsinə çevirdiyi azad torpaqlara səfərində Belarus lideri bir çox dost ölkə başçılarından da qabağa gedərək açıq bəyan edir ki, "Siz azadlıq müharibəsi aparmısınız, qələbənizi təbrik edirik. Heykəlləri güllələyənlər barbardırlar. Qarabağın bərpasına çiyin verəcəyik".

Ölkəmizin bütövlüyünə sevinən, "Tanrıya şükürlər olsun ki, güclü Azərbaycan mövcuddur və İlham Əliyev bütün Qafqazın taleyinə cavabdeh liderdir" deyən adamı qərbli möhtəkirlərə qoşulub ittiham edənlər, sizcə, kim olur indi? Mayın 14-də "Kopenhagen Demokratiya Sammiti"ndə Paşinyana tribuna verən, ölkəmizi Ermənistanın 200 kvadrat kilometr ərazisini işğal etməkdə suçlandıranlar əvəzində Koledoniyanı qan içində boğmaqla heç vaxt demokratik dövlət sayıla bilməzlər.

Sonda, siz iki övladını 44 günlük savaşda şəhid verən azərbaycanlı qadını Srtasburqun titullu salonlarında, Tixanovskaya kimi ayaq üstə alqışlanan, "Böyük Karl" və Saxarov mükafatları ilə təltif olunan görməzsiniz. Ona görə də Bayden, Şolts və digər qərbli rəhbərlər heç vaxt müqəddəs Şuşaya gəlib Vaqifin məqbərəsi önündə dayan-

mayacaqlar. Onlar yalnız Natəvanın heykəlini azad Avropada ağ örtük ilə həbs edə bilərlər.

1990-cı illərdə biz beynəlxalq hesabatlarda ön yerə çıxarılanda ərazilərimiz işğal olunurdu. Həmin o dövlətlər bizi yalnız 20 faizlik natamamlıqda görürlər. Qoy milli demokratlarımız bilsinlər ki, İlham Əliyevin ləğv etdiyi Minsk qrupunu dirçəltməyə hazır olan...

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, növbəti məsələlərə keçirik. Qeyd edim ki, gündəliyin növbəti 5 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Gündəliyin 5-ci məsələsi "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumatı bu gün hörmətli Mahir Abbaszadə verəcək. Mahir müəllim, buyurun.

**M.Abbaszadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, Sahibə xanım, təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Gömrük orqanlarında xidmət keçməyə dəyişiklik edilməsi ilə bağlı qanun

layihəsinə üçüncü oxunuşda hörmətli millət vəkillərindən heç bir təklif və irad daxil olmamışdır. Layihənin olduğu kimi səsə qoyulmasını sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 6-cı məsələyə keçirik. Bu məsələ Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Əvvəlki oxunuşlarda layihə ilə bağlı geniş məlumat verilib və olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Qanun layihəsinə daha iki komitədə baxılmışdır. Ailə, qadın və uşaq məsələləri komitəsinin rəyini bildirmək üçün mən

hörmətli Hicran Hüseynovaya söz verirəm. Hicran xanım, buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bizim komitəmizdə də bu məsələyə baxılıb, heç bir rəy, təklif və əlavə yoxdur, müsbət qəbul olunub. Xahiş edirəm, səsə qoyulsun.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Tahir müəllim, rəyi özünüz verəcəksiniz. Buyurun. Tahir Mirkişili.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Bizim komitənin də rəyi müsbətdir. Həmkarlarımdan səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Heç kimin sözü, sualı yoxdur. Mən layihəni səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti iki məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır. 7-ci məsələ "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri

haqqında” Qanunda dəyişiklik edilməsi barədə, 8-ci məsələ isə Əmək Məcəlləsində və Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihələridir.

Hörmətli həmkarlar, təklif edirəm, biz əvvəlcə qanun layihələrinin təqimatlarını dinləyək. Qeyd edim ki, layihələrə iki komitədə – Hüquq siyasəti və dövlət quruculuğu komitəsində və Əmək və sosial siyasət komitəsində baxılmışdır. Bəhruz müəllim, mən Sizdən xahiş edəcəyəm ki, 7-ci məsələyə dair məlumat verin, 8-ci məsələ haqqında isə rəy bildirin. Buyurun.

**B.Məhərrəmov**. Hörmətli sədr, əvvəlki oxunuşda bu layihə ilə bağlı geniş məlumat verilib. Həmkarlarımız sağ olsunlar, yekdil şəkildə dəstəkləyiblər və olduğu kimi yenidən səsə qoyulmasını xahiş edirik. Digər məsələ ilə bağlı isə komitəmizin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. 8-ci məsələyə dair məlumat vermək üçün mən Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Əvvəlki iki oxunuşda layihə barədə sizə ətraflı məlumat verilmişdir. Komitəyə qanun layihəsinə dair rəy və təklif daxil olmamışdır. Layihənin mətnində dəyişiklik yoxdur. Üçüncü oxunuşda səsə qoymağınızı və dəstəkləməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyuram. İndi xahiş edirəm, 7-ci məsələdəki qanun layihəsinə, yəni “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun

layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 8-ci məsələni, Əmək Məcəlləsində və Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 9-cu məsələsinə keçirik. Bu məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Elnur Allahverdiyevə söz verirəm. Elnur müəllim, buyurun.

**E.Allahverdiyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlarımız tərəfindən heç bir irad və təklif daxil olmadığından qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Heç kimin sözü, sualı yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, gündəliyin 10-cu məsələsinə keçirik. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 2023-cü il 5 dekabr tarixli 1035-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır və qanunvericiliyin tələbinə əsasən 1 oxunuşda qəbul ediləcək. Layihəyə Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Əhliman Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, həmkarlarım. Təqdim olunan qanun layihəsi "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırma məqsədi ilə hazırlanmışdır. "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 9-cu maddəsinə və "Özəl tibb fəaliyyəti haqqında" Qanunun 13-cü maddəsinə "bir nəzarət-kassa aparatının çeki üzrə" sözlərinin əlavə edilməsi təklif olunur.

Hörmətli həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Əhliman müəllim, çox sağ olun. Heç kimin sözü, sualı yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, 11-ci məsələyə keçirik. Bu məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, layihə ikinci oxunuşda müzakirəyə təqdim olunur. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən, Bəhruz müəllim, Sizə söz verəcəyəm. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm, hörmətli sədr. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında layihə, – bildiyiniz kimi, birinci oxunuşda da məlumat vermişdik, – möhtərəm Prezidentin imzası ilə daxil olub və 3 fərqli istiqamətdə dəyişikliklərə xidmət edir.

Birinci dəyişiklik məhdud məsuliyyətli cəmiyyətlərin fəaliyyətində intizam formalaşdırır. MMC-nin nizamnamə kapitalının tamamilə ödənilməməsinə və ya ödənilmiş nizamnamə kapitalı barədə məlumatın verilməməsinə görə, habelə ödənilmə müddəti ilə şərtləndirildiyi halda isə 3 ay ərzində bu prosesin tamamlanmamasına görə vəzifəli şəxslər və hüquqi şəxslər barədə ədalətli və adekvat inzibati tənbeh müəyyən edir.

İkinci istiqamət "Tütün və tütün məmulatı haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda dəyişikliklərlə əlaqədardır. Bu məqsədlə İnzibati Xətalar Məcəlləsinə yeni maddə əlavə olunur və qeydiyyata alınmadan tütün məmulatının istehsalı, fəaliyyəti ilə məşğul olmağa görə cərimə növündə inzibati tənbeh müəyyən edilir.

Dəyişikliyin 3-cü istiqaməti isə prokurora əlavə konkret maddə üzrə səlahiyyətlərin verilməsini nəzərdə tutur. Layihədə göstərilən konkret maddələr üzrə inzibati tənbeh almış şəxslər tərəfindən həmin qərar qüvvəyə mindiyi gündən bir il ərzində xətanın təkrar törədilməsinə görə konkret maddə üzrə icraatın başlaması nəzərdə tutulur.

Hörmətli həmkarlar, gördüyünüz kimi, layihə kifayət qədər ciddi dəyişiklikləri ehtiva edir və bu mənada sizdən qanun layihəsini dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur. Ona görə də biz əvvəlcə

qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirəyə başlayırıq. Yazılanlar var. Vüqar Bayramov. Vüqar müəllim, buyurun.

**V. Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, mən də Sizi çox uğurlu son səfərlərlə bağlı təbrik edirəm. Cənab Prezidentin müəyyənləşdirdiyi xarici siyasət strategiyasına uyğun olaraq, parlament diplomatiyası nəinki Azərbaycanda, bütövlükdə, regionda inkişafa töhfə verir. Bu, bir daha təsdiq edir ki, Sizin rəhbərliyiniz ilə cənab Prezidentin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq, artıq Azərbaycan Milli Məclisi regionda sülhün əldə edilməsinə töhfə verməkdədir.

Təqdim olunan layihədə bir maddə ilə bağlı fikirlərimi və təklifimi çox qısa olaraq təqdim etmək istəyirəm. Qanun layihəsinin 405-1.2-ci maddəsində məhdud məsuliyyətli cəmiyyətin tamamilə ödənilmiş nizamnamə kapitalı barədə məlumatı qanunvericiliklə müəyyən edilmiş müddətdə dövlət qurumuna təqdim etməməsinə görə cərimələrin tətbiq olunması nəzərdə tutulur. Həmin maddəyə görə vəzifəli şəxslər üçün 500 manat, hüquqi şəxslər

üçün isə 1000 manat cərimənin tətbiq olunması təklif edilir. Amma nəzərə alsaq ki, bu məlumatlar elektronlaşıb və praktik olaraq bütün dövlət qurumlarının bu məlumatlara inteqrasiya olunmuş çıxış imkanları var. Ona görə də mən həm elektronlaşma səviyyəsinin yüksək olmasını, həm də məlumatların inteqrasiya olunduğunu nəzərə alaraq, təklif edərdim ki, birbaşa cərimələr deyil, ilkin olaraq, xəbərdarlıq, – bizim digər məcəllə və qanunlarda da bu, nəzərdə tutulub, – daha sonra məlumatlar təqdim olunmadığı halda cərimələrin tətbiq edilməsi həyata keçirilsin. Bu, təbii ki, biznes üçün yeni bir imkan ola bilər.

Eyni zamanda, nəzərə alaq ki, məlumatlar elektronlaşdığı üçün artıq növbəti mərhələdə həmin qurumların da inteqrasiya nəticəsində o məlumatlara çıxış imkanları olacaq. Çünki praktik olaraq həmin cəmiyyətlər nizamnamə kapitalını ödəyirlər. Sadəcə, məlumatın vaxtında təqdim edilməməsindən söhbət gedir. Ona görə də təklif edərdim ki, birbaşa cərimələr deyil, əvvəlcə xəbərdarlıq, daha sonra cərimələrin müəyyənləşdirilməsi həyata keçirilsin. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bəhruz müəllim, sözünüz var, buyurun.

**B.Məhərrəmov**. Sahibə xanım, mən çox qısa formada qeyd edim. İndiyə qədər, özəl sektorda, xüsusən mövcud MMC-lərin fəaliyyətində bununla bağlı ciddi boşluqlar müşahidə olunurdu, xüsusən müvafiq məlumatların ötürülməsi ilə bağlı. Dövlət orqanları fəaliyyətlərində bu məsələlərə mümkün qədər səbirlə və təmkinlə yanaşıblar. Bəli, Vüqar müəllimin qaldırdığı məsələ kifayət qədər konseptual yanaşmadır. Lakin indiki məqamda, hesab edirəm ki, mövcud təkliflər, mövcud cərimələrin tətbiqi hansısa ciddi

problemlərə yol açmayacaq. Əksinə, bu istiqamətdə intizamın möhkəmləndirilməsinə, bütövlükdə, fəaliyyətə ümumi dəstək olacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış edən yoxdur. Ancaq səsvermə qalıb. Ona görə də mən fasilə məsələsinin sizdən təsdiqini almadım ki, fasiləsiz...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz qanun layihəsinə maddələr üzrə münasibət bildirməliyik. Layihədə iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bildiyiniz kimi, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və müşayiət edən digər şəxslər helikopter qəzasında həlak olmuşlar. Faciə ilə əlaqədar biz dost və qardaş İran xalqının kədərinə şərik oluruq, həlak olanlara Allahdan rəhmət, onların yaxınlarına və bütün İran xalqına səbir diləyirik və bir dəqiqəlik sükutla yad edirik.

*(Hamı ayağa qalxır.)*

Allah rəhmət eləsin.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız mayın 24-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Bəhruz Məhərrəmov.** Qanunvericiliyə əsasən insan alveri dedikdə hər hansı şəxsin istismar edilməsi məqsədi ilə cəlb edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi nəzərdə tutulur. Bu şəxslər bir qayda olaraq, zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, aldatma, sui-istifadə etmə, yaxud nemətlər, imtiyazlar və ya güzəştlər hesabına insan alverinin qurbanına çevrilirlər. İnsan alverinin qurbanları məcburi əməyə, köləliyə, cinsi zorakılığa, insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etməyə məruz qalırlar.

Dünyada mövcud praktika deməyə əsas verir ki, qurbanlar, adətən, yaxşı iş, çox hallarda xaricdə yüksək gəlir və digər imtiyazlar, firavan həyat kimi amillərlə tora salınırlar. Bu fəaliyyətlə məşğul olan mütəşəkkil dəstələr, adətən, işədüzəltmə və moda agentlikləri pərd[illegible] fəaliyyət göstərirlər.

Bir də bu prosesin bir Azərbaycan nümunəsi [illegible] "siyasi fəaliyyət" pərdəsi altında insan alveri. Bu gün radikal müxalifət üçün partiya bileti Qərbdən siyasi sığınacaq almaq, xüsusən cinayətkarlar üçün alver vasitəsidir. Konfiqurasiya çox sadədir. Cinayət törətmiş hər hansı bir adam, məsələn, dələduzluqda təqsirləndirilən biri anti-milli qruplaşmanın üzvü olur, sosial mediada hakimiyyət əleyhinə iki kəlmə məntiqsiz tənqid səsləndirir, muzdlu media da prosesə qoşulur və şəxs əməlinə görə cəzalandırılanda da ad olur ki, filankəs fikirlərinə görə Azərbay-

canda təqib olunur. Bu, həm həmin o cinayətkarlara həm də Qərbin muzdlu direktivlərini icra edən beşinci kolona sərf edir. Yəni bəlli siyasi dairələrə məhz buna görə nə seçki maraqlı deyil, nə də çoxpartiyalı sistemin inkişafı.

Bir neçə gün öncə Prezident Administrasiyası tərəfindən Milli Məclis Aparatı və digər dövlət strukturları, o cümlədən 25 siyasi partiyanın nümayəndələrinin iştirakı ilə təşkil olunan görüşə də bu kimi amillərə görə maraq göstərmədilər. Çünki bunlar bir layihədir, məqsədləri də anti-Azərbaycan dairələrinin direktivlərini yerinə yetirməkdir. O cümlədən də Qərbə insan satışı.

Bu prosesdə də əsas insan alverçisi kimi bir sıra Avropa dövlətləri çıxış edir. Məsələn, Fransa bir qrup başıpozuq azərbaycanlını Azərbaycan əleyhinə qul kimi istifadə edir, mühafizəsini təmin edir, yaşayış yerini, yeməyini verir. Şərt qoyur ki, bizim tezisləri öz səviyyəndə səsləndir. Bu adamlar da ləyaqətlərini imtiyazlara dəyişən tiplərdir və məmnuniyyətlə bu prosesin iştirakçısına çevrilirlər.

Yəni açıq deməliyik ki, bir sıra Qərb dövlətləri, o cümlədən Fransa və onun orbitində olan müəyyən beynəlxalq insan haqları təsisatlarının özləri insan alverinin təməlində dayanan amil kimi çıxış edirlər və fəaliyyətlərində, yaydıqları hesabatlarda səmimi deyillər. İnsan hüquqlarının təmini üzrə digər aspektlərdə olduğu kimi, insan alveri ilə mübarizə də, təəssüf ki, qlobal miqyasda siyasiləşib və bu sahədə qlobal mexanizmlər lazımi etimad yarada bilmir.

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatındakı statistika da göstərir ki, ötən il üzrə (59-u insan alveri, 44-ü insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkət və 3-ü məcburi əmək faktı olmaqla) haradasa 200 civarında fakt aşkarlanıb və aidiyyəti hüquqi tədbirlər görülüb. Bu, ciddi uğurdur və bir daha göstərir

ki, DİN qanunvericiliklə üzərinə düşən digər vəzifələr kimi, insan alveri ilə mübarizədə də kifayət qədər uğurlu nümunə ortaya qoyub. Yəni Azərbaycanda ictimai qayda və ictimai təhlükəsizliyin tam təmin olunması, xüsusən daxili işlər orqanlarının səmərəli fəaliyyətinin nəticəsi olaraq ölkəmizdə insan alveri ilə məşğul olan mütəşəkkil dəstələr faktiki olaraq şəbəkə qura bilmirlər. Digər istiqamətlərdə olduğu kimi, bu sahədə də Azərbaycanda kriminogen durum tam nəzarətdədir. Tora düşənlər isə aidiyyəti orqanların davamlı xəbərdarlıqlarına baxmayaraq, bir qayda olaraq sosial media üzərindən verilən vədlərə inanaraq insan alverinin qurbanına çevrilirlər.

Azərbaycan bu sahədə səmimi mübarizə əzmi ortaya qoyan azsaylı beynəlxalq subyektlərdəndir və bizim artıq qlobal miqyasda bu prosesləri qiymətləndirməyə haqqımız çatır. Ona görə də təklif edirəm ki, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun növbəti illər üzrə məlumatlarının həm də beynəlxalq xarakter daşıması, qlobal indikator kimi çıxış etməsi məqsədəmüvafiq olar. Çünki biz artıq sıradan dövlət deyilik. Cənab İlham Əliyevin sayəsində dünyada gedən proseslərə yön verən güclərdən birinə çevrilmişik və dövlət başçımız elə bir reallıq yaradıb ki, artıq biz qiymət gözləyən deyil, qiymətləndirən tərəfik. Bu mənada hesabatlarda Fransanın müstəmləkələrdəki antibəşəri fəaliyyətindən tutmuş ABŞ–Meksika sərhədindəki açıq insan alverinə qədər məsələlərə dair hesabatlar yayımlamağımız lazımdır.

Bütövlükdə, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun məlumatı çox yüksək qiymətləndirilməlidir və dəstəkləyirəm.

**Ceyhun Məmmədov.** Hörmətli xanım sədr, mən də Sizi uğurlu səfərlər münasibəti ilə təbrik edirəm. Azər-

baycanla Ermənistan parlament sədrlərinin bir neçə dəfədir müxtəlif platformalarda görüşlər keçirməsi ölkəmizdə parlament diplomatiyasının uğurla həyata keçirildiyinin göstəricisidir.

Məlum olduğu kimi, bir neçə gün öncə Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə növbəti dəfə səfər etdi və bir sıra yeni kəndlərin təməlini qoydu. Səfər çərçivəsində Cəbrayıl rayonunun da bir neçə kəndinin təməli qoyuldu. Bu, bir daha onu göstərir ki, Böyük Qayıdış gözlənildiyindən də sürətli bir formada həyata keçirilir. Digər bölgələrimiz kimi, Cəbrayıl da sürətlə yenidən qurulur.

Eyni zamanda, bir neçə gün bundan əvvəl Cəbrayılda Azərbaycan–İran sərhədində “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimi keçirildi. Xeyli vaxt idi ki, İran və Azərbaycan tərəfi bu hidroqovşaqlarla bağlı müzakirələr aparırdı. Bu tədbirin baş tutması Azərbaycan–İran münasibətlərində yeni bir mərhələ kimi qiymətləndirilməlidir. Bu, həm də onu göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev qarşıya qoyduğu bütün hədəflərə uğurla nail olur.

Burada bir mühüm məqama da toxunmaq istəyirəm. Məlum olduğu kimi, sözügedən layihənin inşasına ötən əsrin 80-ci illərinin sonundan başlanılmışdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra layihənin həyata keçirilməsi davam etdi. Burada Ulu Öndərin misilsiz xidmətlərini qeyd etmək lazımdır. O, 1994-cü ildə İrana səfər çərçivəsində layihənin davam etdirilməsi barədə müzakirələr apardı.

Eyni zamanda, Prezident İlham Əliyev 2016-cı ildə İrana səfər edərkən İran tərəfi ilə sözügedən hidroqovşaqlarla bağlı növbəti saziş imzalandı.

Həmin dövrdə bəzi radikal qruplar bu sazişin imzalanmasını yanlış qərar kimi təqdim etməyə çalışdılar. Hətta 2020-ci ildə də bu məsələ yenidən gündəmə gəldi. Həqiqət isə ondan ibarətdir ki, o dövrdə həm Ulu Öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev əmin idilər ki, torpaqlar işğaldan azad ediləcək. Sərhəddə baş verən görüş bu fikri bir daha təsdiq etdi.

**Malik Həsənov.** 2023-cü ildə İnsan alverinə qarşı mübarizə sahəsində görülən işlərə dair təqdim edilən layihə kifayət qədər geniş və əhatəli hazırlanmışdır. İnsan alveri bütün dünyada geniş yayılmış bəşəri bir cinayətdir. Bütün cinayət əməllərində olduğu kimi, insan alverinə qarşı mübarizənin təşkilində inzibati üsul və vasitələr, cinayət təqibindən başqa əsas vasitələrdən biri də bu kimi cinayətlərin baş verməsinə yol açan səbəb və amillərin aradan qaldırılması, bir də geniş maarifçilik tədbirlərinin görülməsidir.

Məlumatdan da göründüyü kimi, hesabat dövrü ərzində maarifçilik sahəsində xeyli iş görülmüş, qanunvericiliyin təbliği bu kimi fəaliyyətin əsas xəttini təşkil etmişdir. Paralel olaraq qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində də işlər görülmüşdür. Bu istiqamətdə 2023-cü ildə aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə Azərbaycan Respublikası Prezidentinin sərəncamında və Nazirlər Kabinetinin qərarında dəyişikliyin edilməsinə nail olunması təqdirəlayiqdir. Bunların sırasında “İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları”na əsasən insan alveri qurbanları üçün Yardım Mərkəzinin yaradılması, xüsusi müəssisədə insan alveri qurbanlarının dərman preparatları ilə təmin edilməsi, təxirəsalınmaz tibbi və psixoloji yardımın

göstərilməsinin Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin funksiyalarına aid edilməsi, çevik reaksiyaların verilməsi və konkret əməli dəstəyin təmin olunması bu baxımdan əhəmiyyətli hesab edilə bilər.

30 illik işğal dönəmində yüzlərcə insanımız ermənilər tərəfindən insan alverinin qurbanına çevrilmişdir. Onların bir çoxu insan orqanı və əzaları ilə alver edən transmilli cinayətkar dəstələrin hədəfi olmuş, əsir həyatı yaşamağa məcbur olmuş soydaşlarımızın əməyi istismar edilmişdir. Məhz bu tarixi həqiqətlərin dünyaya çatdırılması əsas vəzifələrimizdən olmaqla, beynəlxalq məhkəmələrdə bu əməllərlə bağlı yeni işlərin qaldırılmasına, həmin işlərin müsbət nəticələnməsinə nail olmalıyıq. Bu, həm tariximiz, həm işgəncə qurbanlarının ruhlarının dinclik tapması, həm də sağ qalan qurbanlara itirdikləri sağlamlıqları müqabilində, – təbii ki, heç bir kompensasiya ilə bunları qarşılamaq mümkün deyil, – kompensasiyaların alınması üçün vacibdir.

Qeyd etdiyim kimi, insan alveri qurbanlarından birinə çevrilmənin çoxsaylı səbəbləri vardır. Onlar içərisində deyərdim ki, iqtisadi amillər ön plana çıxır və insanların qarşılığı ödənilməyən məcburi əməyindən istifadə halları bunlar içərisində ən geniş yayılanlarından biridir. Məlumatdan da göründüyü kimi, hesabat dövrü ərzində bu məsələ ilə bağlı geniş maarifləndirmə tədbirləri həyata keçirilmiş, 6500-dən çox işəgötürən və onun nümayəndəsi ilə görüşlər təşkil edilmişdir. Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikilməkdə olan 32 çoxmərtəbəli yaşayış binasında yoxlamalar keçirilmiş, 47 şəxsin əmək müqaviləsi olmadan işə cəlb edilməsi faktı aşkarlanaraq 13 işəgötürən haqqında, ümumilikdə, 123,100 manat məbləğində inzibati cərimə tətbiq edil-

mişdir. Dövlət Əmək Müfəttişliyi Xidmətinin vətəndaş müraciətləri əsasında apardığı yoxlamalar zamanı şəxsin əmək müqaviləsi olmadan işləməsi faktı aşkarlanaraq işəgötürənlər, ümumilikdə, 2,374,400 manat məbləğində cərimələnmiş, habelə bir fakt üzrə işçini əmək funksiyasına aid olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etməyə görə aidiyyəti vəzifəli şəxs inzibati məsuliyyətə (cərimə) cəlb olunmuşdur.

İnsan alveri və məcburi əmək qurbanlarının müəyyənləşdirilməsi, istismar hallarına yol verən şəxslər haqqında müvafiq məsuliyyət tədbirlərinin görülməsi işi davam etdirilərək xüsusi polis qurumu tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində insan alveri və üç məcburi əmək faktı, həmçinin insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 44 cinayət aşkarlanmışdır.

Qeyd edilənlərdən də göründüyü kimi, ötən il ərzində ölkəmizdə insan alverinə qarşı mübarizə istiqamətində geniş miqyaslı işlər görülmüş, nəticədə sabit durumun formalaşmasına nail olunmuşdur. Hesab edirəm ki, təqdim olunan məlumat qəbulediləndir.

# MÜNDƏRİCAT

21 may 2024-cü il.................................................................. 3

Edilməmiş çıxışların mətnləri............................................... 82

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On beşinci sessiya
Yaz

70-ci cild

21 may 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,5. Sifariş 67. Tiraj 150.